## Zəngəzur dəhlizinə nəzarət FTX-yə verilir?


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№39 (3330) 15 Oktyabr / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qəpik


ANA XƏBƏR



## Cinayət törədən yeniyetmələrin sayı günbəgün niyə artır?

# Gürcüstanın taleyini həll edəcək seçki



İndi ölkənin iki yolu var: ya Kremlin pəncəsində əsir olmaq, ya da şəffaf seçkilərlə gerçək azadlığa qovuşmaq

8-9

GÜNÜN NƏBZİ

Aktual

### "Narkotik cinsi aktivliyi çox ciddi şəkildə aşağı salır"



Vasif İsmayıl: "Marixuana orqanizmdəki yağların içinə toplanır və orada 6-7 ay qədər təsiredici şəkildə qalır"

11

Ölkə

### "Elmar Vəliyev deyir ki, dövlət də bizik, dövləti idarə edən də"

Torpaq sahəsi əlindən alınan qazi keçmiş icra başçısının oğlundan şikayətçidir

7

Şikayət

### "Qaçqınkom" və "JEK" məcburi köçkünün evini ələ keçirib

Qubadlı rayon sakini Elşad Bəylərov: "Mənə dedilər ki, sistemdə olan ev sənə verilməyəcək, hazırda sənə təklif olunanı dəyərləndir"

10

Xəbər

### Biznesini genişləndirmək üçün obyekt aldı, 2,8 milyon manat ziyana düşdü

"Pak-İz" MMC-nin təsisçisi Vüqar Qasımov: "İcra başçısı deyir ki, gərək bizə göstəriş verilsin..."

2

Xəbər

### "Bosh shelf"in departament müdiri haqda şok iddialar

Necə olur ki, İlham Eminbəyli SOCAR prezidentindən çox maaş alır?

2

Müsahibə

### "O, əsl Azərbaycan kişisi idi"



Sevinc Orucova: "Raquf Orucov çətin məqamlarda hələ də bizə aydın, işıqlı yol göstərir"

6

Layihə

### Azərbaycanda boşanma halları niyə sürətlə artır?



Və yaxud hakimlərin yanlış qərarı boşanmaların artmasına nə kimi təsir göstərir?

12

Ölkə

## Bankdan 44 min manat kredit götürdü, 1 gün sonra evindən oğurlandı

Qobustan sakini deyir ki, polisə müraciət etsə də, oğru aylardır tapılmır

Qaradağ rayonu, Qobustan qəsəbəsi, Massiv 1 A sakini Nağılı Cavid Təbriz oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi saytımız vasitəsilə Daxili İşlər Nazirliyinə müraciət edir. "Yazaraq bildirirəm ki, 7 iyul 2024-cü ildə, səhər saatlarında evimizdən oğurluq olub. Həmin gün səhər saat 7:20-də ailəvi olaraq uşağın imtahanı səbəbindən evdən çıxmışdıq.

7

Fakt

## 300 min narkoman, 300 min "potensial ölü"

Azərbaycanda hər "bariqa" 500 nəfəri "öldürür"...

Əsas mövzuya keçməzdən öncə bir suala aydınlıq gətirək: narkoman kimdir? Əlbəttə, bütün cəmiyyətlərdə bu sualın bir cavabı var: gələcəyin cinayətkarı və "potensial ölü"! İstənilən ölkədə narkotik istifadəçisi kriminogen fonu yüksəldən başlıca faktorlardan biridir. Potensial ölülər məsələsinə gəlincə isə, narkotik istifadəçiəri həm doza həddinin aşılması, həm də bir çox ağır, hətta sağalmaz xəstəliklərə yoluxmaqla geri dönülməz şəkildə ölümün pəncəsində asanlıqla həyatdan əllərini üzürlər.

3

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№39 (3330) 15 Oktyabr / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qəpik

*Əyləncə səhifəsi*

## Qərbdə kilsələr pablara, gecə klublarına çevrilir

**Son illərdə bütün dünyada, xüsusən Qərbdə dini təyinatını itirən kilsələr barlara, restoranlara, klublara çevrilir. Bu ABŞ və Avropada gün getdikcə daha çox insanın dindən uzaqlaşması və əvvəllər Avropada hər məhəllədə inşa edilmiş kilsələrə getmək üçün ziyarətçilərin sayının kəskin azalması ilə bağlıdır. Ziyarətçi sayı az olan kilsələri saxlamaq baha başa gəlir və yalnız bir çıxış yolu qalır - müqəddəs məkanları təyinatından kənar obyektlərə - daha çox restoran, gecə klubu və barlara çevirmək.**



Əgər kilsədə içki içmək fikri sizə küfr kimi gəlirsə, bilin ki, bu, təkcə əyləncəli deyil, həm də tamamilə qanunidir, çünki kilsələr bağlandıqdan sonra müqəddəslərin təmizlənməsi prosesindən keçir. Bu o deməkdir ki, bina artıq müqəddəs hesab edilmir, baxmayaraq ki, onun arxitekturası - vitraj pəncərələri, sərdabələri və qurbangahları dəyişməz qalır.

**Və əzəmətli arxitekturaya ikinci həyat vermək üçün keçmiş məbədlərdə əyləncə məkanları açılır. Bunlar aşağıdakılardır:**

1. *The Church Brew Works (Pittsburgh, ABŞ).*
2. *Müqəddəs Məryəm Kilsəsi (Dublin, İrlandiya).*
3. *Pitcher & Piano (Nottingem, Böyük Britaniya).*
4. *The Chapel (Salisbury, Böyük Britaniya).*
5. *Vessel (Yeni Orlean, ABŞ).*

Bəli, bu bəzilərini təəccübləndirə bilər, amma kilsədə içki içmək, rəqs etmək və səs-küy Qərbdə cəmiyyətin qəbul etdiyi adi hala çevrilir.

# İt kimi yaşamaq üçün bütün sərvətini xərclədi



## O, itə oxşamaq üçün heyvanın üzünü özünə tikdirdi...

**Tarix boyu bəzi insanlar sevimli sənətçisinə, bəziləri dəstəklədiyi siyasətçiyə, bəziləri isə Barbi kuklasına oxşayaraq model olmaq üçün bıçaq altına giriblər. Ancaq it sifətində olan və onun kimi yaşamaq istəyən bir insanla tanış olmaq kifayət qədər çətindir. Rodriqo Brada onlardan biridir.**

Lent.az xarici KİV-ə istinadən xəbər verir ki, əsərləri ilə gündəmə gələn rəssamın fotolarının arxasındakı həqiqət üzə çıxıb.

Son illərdə mətbuatda "Yapon Toko" kimi tanınan həyatını it kimi davam etdirmək istəyən yaponiyalı bir adamın hekayəsinə şahid olduq. Günlərlə, hətta aylarla gündəmdə olan bu adam "border collie" it cinsi üçün kostyum tikdirərək gündəlik həyatını it kimi "YouTube" kanalında izləyiciləri ilə bölüşüb.

Bu yaxınlarda sosial şəbəkələr oxşar hadisə rezonans doğurub. "Rodriqo Braqa" adlı bir sənətçinin üzünə əsl it dériləri tikdirilməsi və yarı it, yarı insan üzünün olması xəbər başlıqlarına bomba kimi düşüb.

Bəs, Rodriqo Braqa niyə bunu edib? Rodriqo Braqanın çox danışılan və eşidən hər kəsi heyran edən hekayəsi:

Ömrü boyu it kimi yaşamağın necə olacağını düşünən Toko məşhur geyim firmasına gedərək yuxusunu izah edib. Arzusu özünü hər mənada it kimi hiss edə biləcəyi bir kostyuma sahib olmaq idi. It kimi yaşamaq, it kimi qaçmaq, it kimi yuvarlanmaq istəyirdi. Kostyum şirkəti bu təklifi qəbul edib və kostyumun hazırlanması 40 gün çəkib. Demək olar ki, canlı olan bu kostyum tamamilə Tokonun fiziki xüsusiyyətlərinə uyğun hazırlanıb. Tokonun bu kostyumu almaq üçün xərclədiyi pul 2 milyon yen və ya təxminən 24 min manat idi. Tokonun hekayəsini eşidənlər onunla əlaqə saxlamaq və onun həqiqətən necə hiss etdiyini öyrənmək istəyirdilər.

Yapon xəbər mənbəyi "Mynavi" ilə müsahibədə Toko hisslərini belə izah edib:

"Heyvanları, xüsusən də sevimli heyvanları sevirəm. Uşaqlıqdan bütün həyatım boyu heyvan olmağın necə olacağını düşünürdüm və özümə uyğun bir növ tapdım. Nəhayət, buna nail oldum".

2 ildən artıqdır ki, sevimli itinə bənzəmək və yaşamaq üçün hər fürsətdən istifadə edən Toko, təkcə kostyum geyinmir, həm də əsl itə bənzəmək üçün çox səy göstərir. Əsas hərəkətləri, xüsusən də yuvarlanmağı və oturmağı bacarır, pəncələrindən yaxşı istifadə etməyə çalışır. "YouTube"da "Heyvan olmaq istəyirəm" adlı kanalı olan Toko, it kostyumunda yaşadıqlarını və it kimi yaşamağın incəliklərini izləyiciləri ilə bölüşür. Evdə öz kostyumu ilə gəzinti, yuvarlanma, oyuncaqlarla oynama videolarını paylaşan Toko ilk baxışdan əsl itdən heç bir fərqi olmayan kimi görünür.

İllərlə müalicə və dərman qəbul etdikdən sonra Braqanın bir sənətçi kimi həyatını dəyişdirəcək fikri var idi. Xəyal etdiyi araşdırma üçün ona it cəsədi lazım olub. O, bir baytar həkimə gedib və anesteziya edilmiş itin üzünü çıxara biləcəyini soruşub. Lazımi prosedurlardan sonra itin üzünü alıb. İtin üzündə görülən iş nəticəsində parçalar çıxarılıb. Nəhayət, bu gün gündəmdə iz qoyan həmin fotolar üzə çıxıb:

"Rodriqo Braqa"nın öz gözləri yerinə itin gözləri, ağzının yerinə itin çənəsi, qulaqlarının arxasına isə itin qulaqları tikilib. Təbii ki, bu görüntü böyük müzakirələrə və onun etdiyinin çox yanlış olduğuna dair şərhlərə səbəb olub. Halbuki onun müdafiəsi və ideyasının başlanğıc nöqtəsi insan və heyvanların sərhəddinə gəlincə, bir sənətkar kimi uzağa gedə bilməzdi. Lazımi tikiş prosedurlarından sonra Rodriqo Braqa kamera qarşısına çıxıb və bu əsəri 2004-cü ildə Fantasia de Compensaç?o (Kompensasiya Fantaziyası) adlandırıblar.

Braqanın işini pis hesab edənlər çoxdur. Ancaq bu məqamda məlumatların çaşqınlığına işıq salmaqda fayda var. Rəssam Rodriqo Braqa bu əsəri bəzi iddialara görə 2014 və ya 2024-cü ildə deyil, 2004-cü ildə edib. "Fantasia de Compensaç?o" adlandırdığı əsərin əməliyyat fotoşəkillərində görünən insan başı nə Rodriqonun, nə də hər hansı bir insanın deyil, silikondan hazırlanmış qeyri-real insan başı idi. Amma itin siması real idi.

Əsərdə istifadə edilən itin yatdırıldığı və daha sonra Braqanın işi üçün bağışlandığı məlum olub. Bu araşdırma üçün Braqanın üzünün silikon qəlibi hazırlanmış və itin üzündən alınan parçalar baytar həkim tərəfindən silikon qəlibə tikilib. Ancaq bu, itin üz hissələrinin, hətta ölü olsa belə, götürülərək süni insan üzünə tikilməsi faktını dəyişməyib.

Rodriqo Braqanın bu əsəri 2004-cü ildə sərgilənəndə tənqidi diqqəti cəlb etməklə yanaşı, heyvanları müdafiə edən təşkilatlardan hədələr və nifrət məktubları alır və o, bu sahədə işləmək üçün fasilə verməli olduğuna qərar verir. Bu radikal işdən sonra təbiətlə təmasda olmağa başlayan Braqa, çılpaq şəkildə torpağa basdırdığı, yarpaq və çiçəklərlə örtüldüyü fotoşəkillər çəkdirib və bu gün də oxşar məzmunlu işlərini davam etdirir.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.



# "Bosh shelf"in departament müdiri haqda şok iddialar

## Necə olur ki, İlham Eminbəyli SOCAR prezidentindən çox maaş alır?



**Cəbrayıl rayon sakini Əliyeva Məlahət İslam qızı tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçinin redaksiyamıza göndərdiyi məktubu olduğu kimi dərc edirik:**

"Mən, Cəbrayıl rayonundan məcburi köçkün düşən Əliyeva Məlahət İslam qızı, yazaraq sizdən xahiş edirəm ki, problemimi işıqlandırasınız.

44 il iş stajım var, 13 ilini Cəbrayıl rayonunda, 20 ilini SOCAR-da, 11 ilini isə "Bosh shelf" MMC-də işləmişəm.

Bildirim ki, "Bosh shelf" MMC-də Maliyyə Departamentinin rəisi İlham Eminbəyli vəzifəsindən sui-istifadə edir.

İşçiləri arasında məcburi köçkün və müharibə veteranları da var. 2013-cü ildə haqsız olaraq SOCAR-ın 7 nəfəri işçisini işdən çıxardılar. Mən də daxil olmaqla, 1 nəfər qaçqın, 2 nəfər müharibə veteranın maaşını 200 manat aşağı saldılar. Qorxudan heç birimiz etiraz edə bilmədik.

İlham Eminbəyli köməksiz insanların üzərindəki "qələbəni" mahnı oxuya-oxuya qeyd edirdi. Müharibə veteranı Çingiz Rüstəmovu işdən çıxarmaq üçün akt tərtib etdi və bütün mühasibatlıq əməkdaşlarına hədə-qorxu gələrək imza atdırdı. Mən isə həmin akta qol çəkmədiyimə görə, şəxsi ədavət güdərək, illərdir mənə qarşı kin saxlayır. Məhz bu səbəbdən də həmişə mənə təzyiq göstərir. İlham Eminbəyli məni işdən çıxarmaq üçün 10 dəfə Kadrlar Şöbəsinə müraciət edib. Mən və digər imtiyazlı işçilər 700 manat, özünün işə götürdüyü işçilər isə 4-8 min arası maaş alırlar. Əlavə olaraq, onları 6-cı günlər də işə çıxardır və maaşları 10 min manata qədər yüksəlir. İlin sonunda da nə qədər bonus yazırlar...

Rəhbərliyin özü və müavini ehtimal edirəm ki, 10 min manatdan yüksək maaş alır. Heç SOCAR prezidenti o qədər maaş almır.

Biz bilmək istəyirik ki, vaxtilə "Əsrin müqaviləsi" xalqın rifahı, yoxsa bunların kef sürub dolanması üçün bağlanılıb?

Hər dəfə Kadrlar Şöbəsinə çağırılanda böyük sarsıntı keçirirdim və bu insanla üzləşməmək üçün 2024-cü ilin sentyabr ayında ərizəmi yazdım. Təəssüflə qeyd edirəm ki, Kadrlar Şöbəsi ərizəmin üstünü yazıb, maaşımın 2 mislini vermədi. Bu cür insanlara nə ad vermək olar?!"

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

**ELAN**

**Bakı şəhəri Nərimanov rayonunda Həmidov İsmayıl Mikayıl oğluna məxsus şəxsiyyət vəsiqəsi itib. Tapan şəxslərdən xahiş olunur ki, aşağıdakı nömrə ilə əlaqə saxlasın: 0508506797**

# Biznesini genişləndirmək üçün obyekt aldı, 2,8 milyon manat ziyana düşdü

## "Pak-İz" MMC-nin təsisçisi Vüqar Qasımov: "İcra başçısı deyir ki, gərək bizə göstəriş verilsin..."



**Azərbaycan Respublikasının 17 yaşlı ilk qazisi, Masazır qəsəbəsi, "Qurtuluş-93" yaşayış massivi, bina 62, ev 16-da yaşayan Qarabağ müharibəsi əlili, "Pak-İz" MMC-nin təsisçisi Qasımov Vüqar Əliyar oğlu tərəfindən Hürriyyet-.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Rəsmi qurumlardan şikayət edən V.Qasımovun məktubunu olduğu kimi dərc edirik:**

"Mən, Qasımov Vüqar Əliyar oğlu, sizdən xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Bildirim ki, sahibkarlıq fəaliyyətimi genişləndirmək üçün halal qazancımla bir neçə obyekt aldım. Belə ki, əvvəllər olduğu kimi, tikinti materiallarının satışını bir az da genişləndirmək istədim.

2015-ci ildə Naxçıvan Muxtar Respublikası (MR) Standartlaşdırma və Patent İdarəsinin rəisi Malik adlı şəxs sertifikat, əmtəə nişanı, mağaza adı almaq bəhanəsi ilə məndən 150 min manat tələb etdi. Əks təqdirdə, yəni istədiyi məbləğ verilməsə, mənim sahibkarlıq fəaliyyətimin ləğv olunacağını və biznes obyektlərimin söküləcəyini bildirdi.

Odur ki, Naxçıvandakı hər iki evimi, Bakıda yoldaşımın adına olan evi "Atra Bank"a girov qoyub, Malikin tələb etdiyi 150 min manatı götürüb, ona verdim.

Ancaq Malikin verdiyi vəd cəmi 3 ay sürdü. Yəni 3 aydan sonra mənim mağazamın qapı və pəncərələri hörüldü və bildirildi ki, sahibkar kimi içəri girməyə ixtiyarım çatmır.

4 il keçdi. Nəhayət, 2018-ci ildə mənə mağazamın içərisindəki malları götürmək izni verildi. Mən oradakı 400 000 manatlıq maldan cəmi 9 000 manatını çıxara bildim. Qalan mallar artıq xarab olub, satışa yararsız hala düşmüşdü. Beləliklə, mənə külli miqdarda ziyan dəydi.

Həmin dövrdə, yəni Vasif Talıbovun Naxçıvana rəhbərlik etdiyi illərdə biz şikayət edə bilmirdik. Odur ki, 2022-2023-cü ildən mənə qarşı olan haqsızlıqla bağlı şikayət etməyə başladım. Üstəlik, kompensasiya ilə təmin olunmamla bağlı Culfa Rayon İcra Hakimiyyətinə ərizə yazdım. Ərizəmə imtina cavabı gəldi. Mən də İcra Hakimiyyətini Naxçıvan MR-in İnzibati Məhkəməsinə verdim.

Məlumat üçün bildirim ki, məhkəmə 18 aydır "araşdırma aparır". İndiyədək heç bir qərar qəbul edilməyib, hamısı da hazırlıq iclaslarıdır. 10 iclas keçirilib, 3-4 iclasda şəxsən iştirak etmişəm. Məhkəmə prosesləri haqda video-görüntü istəyirəm ki, onları Məhkəmə-Hüquq Şurasına təqdim edim. Mənə görüntünü də vermirlər.

Ümumiyyətlə, bildirim ki, mənə 2 milyon 800 min manatdan artıq maddi ziyan vurulub. İllərdir əlimdən çıxmış pulumu dağın dibində yerləşən boş torpaqlarla əvəz etmək istəyirlər.

Digər tərəfdən də, məhkəmələr məni süründürür. Rayon İcra Hakimiyyətinin rəhbərliyi, Ali Məhkəmənin sədri deyir ki, biz heç kimik... İcra başçısı vurğulayır ki, gərək bizə göstəriş verilsin.

Bəs, bu göstərişi verən kimdir?

Məhkəməni də elə vaxtlara salırlar ki, Naxçıvana bilet olmasın, ya da tətil və bayram günləri olsun. Bir sözlə, hazırda öz haqqımı əldə etməkdə, hüququmu müdafiə etməkdə çətinlik çəkirəm. Səlahiyyətli qurumlardan xahiş edirəm ki, mənə dəstək olsunlar.

Onu da bildirim ki, 2 il bundan öncə "Xalq Bank"ın baş direktoru Asim müəllimin sifarişi ilə, borcum var deyə, elektrikimi kəsərək, məndən zorla 150 000 manat alıb, ona verdilər. Maraqlandım ki, həmin ərazi Dövlət Əmlak İdarəsinin balansındadır. Odur ki, mənim xərclərimin danılmaması üçün rezidentlik verilməsini xahiş edirəm.

Bu gün vergi problemləri ilə fəaliyyətimin zəifləməsindən istifadə edən yer sahibi 10 000 kV-lıq elektriki bizə xəbər etmədən günlərlə dayandırır və əmlakımızın əlimizdən alınacağı haqda təhdidlər edir.

Belə düşünürəm ki, Azərbaycanda hüquq-mühafizə orqanları işləmir. Məndən qeyri-qanuni şəkildə pulu alıblar. Aidiyyəti orqanlar mənim işimə baxmır".

**Aynurə İSMAYIL**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# Laçın sakini Məşğulluq Agentliyindən şikayətçidir

**Laçın rayonu, Katos kənd sakini Abdullayev Əbdül Nurqələm oğlu tərəfindən Hurriyyet-.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçinin müraciətini olduğu kimi dərc edirik:**

"Mən, Abdullayev Əbdül Nurqələm oğlu, bildirim ki, hazırda Şəki rayonunun Yeni Çələbixan qəsəbəsində yaşayıram. Həyat yoldaşım Abdullayeva Tünzalə Fizuli qızı 2 ilə yaxındır mal-qara almaq üçün Dövlət Məşğulluq Agentliyinə müraciət edib. Avqustun 29-da bizə zəng edərək bildirdilər ki, Şəki rayonunun mal bazarından heyvanlarınızı götürə bilərsiz. Biz heyvanları aldıq. Səhəri gün heyvanların 21-i də xəstələndi, iki baş heyvan tələf oldu.



Sosial şəbəkə vasitəsi ilə cənab Prezidentə və Kənd Təsərrüfatı Nazirliyinə müraciət etdim. Məşğulluq Agentliyinin nümayəndəsi gəldi, gördü ki, heyvanların xəstə olduğunu təsdiqlədi. Dövlət Məşğulluq Agentliyinin işçiləri gələrək, heyvanları apardılar. Bizə bildirdilər ki, sizə sağlam heyvan verəcəyik.

Bir gün xəbər verdilər ki, sizə sağlam heyvan gətirmişik. Bu dəfəki heyvanlar isə qoca və xəstə idi. Biz heyvanlardan imtina etdik".

Məsələ ilə bağlı Dövlət Məşğulluq Agentliyi ilə əlaqə saxladıq. Qurumdan bildirildi ki, Şəki rayonu, Çələbixan qəsəbəsi sakini Abdullayeva Tünzalə Fizuli qızının müraciəti agentlik tərəfindən araşdırılıb: "Vətəndaş özünüməşğulluq proqramı iştirakçısıdır. 29.08.2024-cü il tarixdə "qoyunçulqu təsərrüfatı" zərfi üzrə aktivlərlə təmin olunub. 12.09.2024-cü il tarixində vətəndaş Məşğulluq Agentliyinin yerli filialına müraciət edərək heyvanlardan birinin tələf olduğunu bildirib və digər heyvanların da dəyişdirilməsini tələb edib. Tünzalə Abdullayevanın müraciəti əsasında sənədləri aidiyyəti üzrə baxılması üçün göndərilib. Vətəndaş bir neçə dəfə, sonuncu dəfə isə 04.10.2024-cü il tarixdə yeni aktivlərlə təmin olunmaq üçün paylanış prosesinə dəvət edilib. Tünzalə Abdullayeva hər dəfə heyvanları götürməkdən imtina edib.

Vətəndaş növbəti aktiv paylama prosesinə dəvət ediləcəkdir".

**Aynurə İSMAYIL**



# 300 min narkoman, 300 min “potensial ölü”

## Azərbaycanda hər “bariqa” 500 nəfəri “öldürür”...

**Əsas mövzuya keçməzdən öncə bir suala aydınlıq gətirək: narkoman kimdir? Əlbəttə, bütün cəmiyyətlərdə bu sualın bir cavabı var: gələcəyin cinayətkarı və “potensial ölü”!**

İstənilən ölkədə narkotik istifadəçisi kriminogen fonu yüksəldən başlıca faktorlardan biridir. Potensial ölülər məsələsinə gəlincə isə, narkotik istifadəçiəri həm doza həddinin aşılması, həm də bir çox ağır, hətta sağalmaz xəstəliklərə yoluxmaqla geri dönülməz şəkildə ölümün pəncəsində asanlıqla həyatdan əllərini üzürlər.

Qeyri-rəsmi statistikaya görə, ölkəmizdə 280 minlə 300 min arasında narkotik istifadəçisi var. Respublika Narkoloji Mərkəzindən Stopnarkotik.az-a verilən məlumata görə isə, 2024-cü ilin iyun ayı üçün müalicə üçün narkoloji dispanserlərə müraciət edən ölkəmizdə qeydiyyatda olan narkomanların ümumi sayı 39 175 nəfər olub. Onlardan 38 258-i kişi, 917 nəfəri isə qadındır. Nəzərə alsaq ki, müalicəyə üz tutan narkomanların sayı təxminən onların ümumi sayının yeddidə birini təşkil edir, deməli, rəsmi olaraq 39 175 nəfər olan narkomanların qeyri-rəsmi sayı 274 225 nəfər təşkil edir. Bu baxımdan, 280 min rəqəminin heç də “göydən düşmədiyi” aydın olur.

Digər tərəfdən, ABŞ-ın keçmiş prezidenti Donald Trampın “Fox” televiziyasının efirində, “hər bir narkotik alverçisi orta hesabla 500 nəfəri öldürür” açıqlamasını da diqqətdən qaçırmaq olmaz. O bildirir ki, narkotik alverçiləri üçün ölüm cəzası tətbiq etmədən ABŞ-da narkotik epidemiyasının öhdəsindən gəlmək mümkün deyil. Bu səbəbdən, sabir prezident hesab edir ki, ölkədə narkomaniyanın qarşısını almağın yeganə yolu narkotik alverçiləri üçün ölüm hökmünün tətbiq edilməsidir.

Əslində, ABŞ istər ərazisi, istər əhalisinin sayı baxımından Azərbaycandan



qat-qat böyük ölkə olsa da, narkotikin yayılma tezliyi demək olar ki, o qədər də fərqli deyil. Əksinə, Azərbaycanın əhalisi ABŞ-la müqayisədə çox az olsa da, narkomaniyanın ölkəmizə vurduğu zərər daha dərindir. Üstəlik, nəzərə almaq lazımdır ki, Azərbaycanın reabilitasiyada peşəkarlığı, imkanları ABŞ-la eyni səviyyədə deyil. Göz önünə alsaq ki, 39 175 nəfər sadəcə müalicə üçün narkoloji dispanserlərə müraciət edənlərin sayıdır və hələ bu, o demək deyil ki, həmin asılıların hamısı zəmanətli şəkildə sağlamlığına qovuşur. Odur ki, bu rəqəmi narkotiki tərgidib, sağlam həyata qayıdanların sayı kimi qəbul etmək olmaz. Həmçinin, bu sayı ölkənin insan resursundan əksilən rəqəm kimi də qəbul etmək lazımdır. Nəzər alsaq ki, orta statistik azərbaycanlı ailəsi iki uşağa sahib olmağı tərcih edir, ən elementar hesablama aparsaq, bu 78 350 uşaq edir. Bir az da uzağa gedib, narkotik asılılılarının 280-300 min arasında olduğunun fərz etsək, həmin bu narkomanlardan əmələ gəlməyən uşşaq sayı 560-600 min nəfər körpə vətəndaş edir. Deməli, Azərbacan təkcə narkotik asılılığı üzündən potensial 560-600 min vətəndaşını itirib.

Trampın dediyi, “hər bir narkotik alverçisi orta hesabla 500 nəfəri öldürür” sözü isə, şübhəsiz, bizim ölkə üçün də reallığa yaxındır. Məlumdur ki, Azərbaycan həbsxanalarındakı 28 200 nəfər məhbusun 10 200 nəfəri narkotiklə əlaqədar cəzaçəkmə müəssisələrində həbs cəzası çəkir. Əgər fərz etsək ki, bu 10 200 nəfər narkotik istifadəsinə görə yox, məhz narkotik satışına görə həbsə düşüb, yəni el dilində “bariqa”dır, onda onların satdığı insanların, eləcə də narkotikdən ölənlərin sayı fantastik rəqəm edir.

Əlbəttə, bu o demək deyil ki, bariqa ondan narkotik alanların qısa müddət ərzində ölümünə səbəb olur, amma bu rəqəmlər dəhşətli mənzərə yaradır. Hələ üstəlik, bariqalar hamısı həbsxanalarda deyil, onların əksəri azadlıqda “şıdırğı narkotik alverini edir”. Deməli, “bariqa”-ların qurbanına çevrilən asılılar 300 000 rəqəmi ilə də yekunlaşmır, reallıqda bu göstərici daha çoxdur.

Başqa sözlə, nəslimiz get-gedə yox, sürətlə və iti addımlarla kəsilməyə doğru gedir. Əhalinin sağlam olan hissəsi onsuz da sosial problemlərin məngənəsində sıxılaraq ailə qura bilmir, quranlar yalnız limitli şəkildə uşağa sahib olur, ailələrin da çox hissəsi boşanmaların qurbanı olur. Digər tərəfdən isə 10 milyonluq limitli əhalisi olan ölkəmiz üçün təxmini 300 000 narkotik asılısı bizim üçün olduqca böyük rəqəmdir, hələ bu rəqəmin də doğruluq payının nə qədər olması sual altındadır. Hər bir halda məsələ fəlakətlidir. Hətta belə demək olar ki, doğruluq payı sual altında olsa da, ölkəmizdəki 300 min narkotik asılılı potensial ölülərdir.

**Hazırladı: İ.SABİRQIZI**

# Valideynini itirmiş uşaqlara təhsil sistemində hansı güzəştlər var?



**Ali təhsil müəssisələrində dərslər öz axarı ilə davam edir. Hər il olduğu kimi, bu il də tələbələrin bəziləri dövlət sifarişi əsasında (ödənişsiz), bəziləri isə ödənişli əsaslarla ali təhsil ocaqlarında təhsil almaq hüququ qazandılar. Bəs valideynini itirmiş uşaqlara ödənişli əsaslarla təhsil almaqda hər hansı güzəşt varmı?**

Məsələ ilə bağlı təhsil eksperti Kamran Əsədov Hurriyyet.az saytına açıqlamasında bildirdi ki, valideynini itirmiş tələbələrə təhsil haqqı ilə bağlı güzəştlər Azərbaycan Respublikasının təhsil qanunvericiliyi çərçivəsində müəyyən edilir:

“Bu, sosial qayğıya ehtiyacı olan tələbələrin ali təhsil müəssisələrində təhsil almaq hüquqlarının müdafiəsi və onlara maliyyə yardımı göstərilməsi məqsədilə tətbiq olunur. Aşağıda Azərbaycan qanunvericiliyi və təhsil müəssisələrində təhsil haqqından azad olma qaydaları izah edilir:

**1.** Valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş tələbələrin hüquqları Azərbaycan Respublikasının Təhsil Qanununa və müvafiq qanunvericilik aktlarına əsasən, valideyn himayəsindən məhrum olmuş tələbələr üçün bir sıra güzəştlər nəzərdə tutulur. Bu, xüsusilə valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş tələbələrə aiddir. Əgər tələbə hər iki valideynini itirmişsə və ya valideyn himayəsindən məhrum olmuşdursa, o, ali təhsil müəssisələrində təhsil haqqından tam azad edilə bilər. Bu tələbələrə dövlət büdcəsi hesabına güzəşt tətbiq olunur.

Bəs, valideynini itirmiş tələbələr üçün sosial güzəştlər hansılardır? Qeyd edim ki, bu tələbələrə sosial yardım göstərilməsi və təhsil haqlarının ödənilməsi ilə bağlı qərarlar həm universitetlər, həm də aidiyyəti dövlət orqanları tərəfindən qəbul edilə bilər.

**2.** Ali təhsil müəssisələrində təhsil haqqından azad olma qaydaları Azərbaycan Respublikasının Təhsil Qanununun 47-ci maddəsində qeyd edildiyi kimi, dövlət ali təhsil müəssisələrində təhsil almaq haqqı dövlət sifarişi əsasında ödənilir. Lakin dövlət sifarişi ilə təhsil almayıb, özəl və ya ödənişli əsaslarla təhsil alan tələbələr üçün güzəşt və ya azadolma halları qanunla və ali təhsil müəssisələrinin daxili qaydaları ilə tənzimlənir”.

**Ekspert qeyd edir ki, təhsil haqqından tam və ya qismən azad olma ilə bağlı şərtlər aşağıdakı kimi tətbiq oluna bilər:**

- *Qarabağ müharibəsi şəhidlərinin övladları;*
- *Valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar;*
- *Əlilliyi olan tələbələr (I və II dərəcəli);*
- *Aztəminatlı ailələrdən olan tələbələr (sosial müdafiə yardımı ilə təmin olunan tələbələr).*

Ekspert deyir ki, bu güzəştlər təhsil müəssisəsinin daxili qaydaları, o cümlədən təhsil haqqından azadolma ilə bağlı rektorluğun qərarları əsasında tətbiq edilir. Bununla yanaşı, bəzi hallarda dövlət sosial yardımı və ya təhsil müəssisələrinin xeyriyyə fondundan dəstək ala bilən tələbələr də var.

### Maliyyə yardımları və təqaüdlər

Kamran Əsədov deyir ki, valideynini itirmiş və ya xüsusi qayğıya ehtiyacı olan tələbələrə bir sıra maliyyə yardımları da göstərilir. Bu yardımlar dövlətin sosial müdafiə proqramları çərçivəsində həyata keçirilir və təhsil haqlarının tam və ya qismən ödənilməsini əhatə edir: “Bu güzəştlərin və təqaüdlərin alınması üçün tələbələr müəyyən sənədlər təqdim etməli və aidiyyəti dövlət orqanlarının və təhsil müəssisələrinin müvafiq komissiyaları tərəfindən təsdiq edilməlidir”.

K Əsədov sonda vurğuladı ki, bəzi ölkələrdə də valideynlərini itirmiş və ya xüsusi qayğıya ehtiyacı olan tələbələr üçün təhsil haqqından güzəştlər mövcuddur: “Məsələn, ABŞ-da ”Pell Grant” kimi federal yardımlar, Avropa ölkələrində isə dövlət tərəfindən maliyyələşən müxtəlif təqaüd və maliyyə yardımı proqramları ilə tələbələrə dəstək verilir.

Azərbaycan təhsil sistemi də bu baxımdan sosial bərabərliyin təmin olunmasına yönəlmiş güzəştlər tətbiq etməklə, xüsusi qayğıya ehtiyacı olan tələbələrin ali təhsildə iştirakını təmin edir”.

**Aynurə İSMAYIL**



Eldəniz QULİYEV

# Siyasətə qarışmayın

**Ay camaat, a millət, bu siyasət deyilən şey var haa, çox qəliz bir məsələdi, - hətta kinodan da qəlizdi... Yəni sizlik deyil, - uzaq durun, qarışmayın, ağrımayan başınıza yaylıq bağlamayın...**

Lap belə, bir loxma çörək də tapmasanız, banklar iki gözünüzü bir deşikdən çıxarsa, bazarlar, marketlər, cərimələr gicitkan kolu təki cibinizi deşib varlığınızı dalasa da... Hətta uşaqlarınızı adam balası kimi geyindirib, yedirib-içirib məktəbə göndərməyə imkanınız çatmasa da, evdə arvad-uşağın, çöldə tanış-bilişin, göydə isə Allah-təalanın qabağında üzüqarasınızsa... Yenə də qaxılıb oturun oturduğunuz yerdə!

Siyasət sizlik deyil. Onun öz "xozeyini" var!

Cınqırınızı çıxarmayın, tərpənməyin, heç "mıqq" da eləməyin! Oturun və qanadlı dəvəyə dönmüş quduğan məmurların bahalı-bahalı ayaqqabıları və par-par parıldayan maşınları altında qalıb xurd-xəşil olmağınızla barışın!.. Ara-sıra yavan çörəyi duzlu göz yaşınızla isladıb marça-març yeyin... Allahınıza da min dəfə şükür eləyin ki, hələ dərinizə saman təpmirlər! Gün-güzaranızın sizə, ailənizə, qohum-əqrabanıza vurduğu amansız "qapazlara" "kişi kimi"-nin qabağına bir "na" şəkilçisi də əlavə eləyib, dözün və... bala-bala ölün öldüyünüz yerdə!..

Siyasətə-miyasətə qarışmayın! Sizin siyasətdə nə itiniz azıb axı?!

Deyirlər, "danışma, mumla!" - vəssəlam, danışma, mumla da! Deyirlər, "yalana-palana, haqsızlığa, özbaşınalığa, saxtakarlığa, ən əsası, xəlvət dərədəki tülkü bəyə-filana etiraz eləmə!" - eləmə də!

Xata-bəladan sovuşmaq üçün, bərayi-ehtiyat, gözlərinizi də bağlayın, üstəlik, qulaqlarınızı da tıxayın(Amma qulaqlarınızı azacıq şəkləməyi də unutmayın ki... onlardan "lapşa"-dan, əriştədən-zaddan asmaq çətinlik yaratmasın!..)

Vallahi, anlamıram.

Anlamıram ki, sizin siyasət bazarında nə azarınız var?!

Domuşub-büzüşüb-qaxılıb oturun xarabanızın bir küncündə... Cibinizdə oynayan siçanların, qəlbinizdə şimşək təki çaxan göynərtilərin, oğurlanmış təbəssümünüzün, puç olmuş ümidlərinizin, bada verdiyiniz arzularınızın dərdini çəkin. Özü də içinizdə, ürəyinizdə çəkin!..Bu boyda dərdi-sər sizə azlıq edir, bəyəm?!

Siyasət bir az murdar fason, iki az da axmaq fason nəmənə şeydi; qarışmayın, bulaşmayın... Bir də, sizin haranıza yaraşır axı?!

Hərçənd... bəlkə elə zənn edirsiniz ki, siyasət yüyürə-yüyürə gəlib sizin yanan barmağınıza "çişş" eləyəcək?.. Ay hay...

Bəzən deyinirsiz, şikayət egirsiz ki,: "- Niyə axı bizi söyürlər, döyürlər, şapalaqlayırlar? Niyə ağzımızdan son tikəmizi də qapıb oğurlayır, adam yerinə saymırlar?.."

Mən də deyirəm, noolsun, bə səbir, bə hövsələ?.. Bə, çətinliklərə mərdi-mərdanə sinə gərmək?.. Bə məmləkətin mənafeyi, bə vətən qeyrəti, bə filan-beşməkan?..

Odurki, dözün, mənim məzlum, sadəlövh, ürəyi təmiz xalqım. Dözün və bilmərrə səbir edin! İki dünya bir olsa da, lap bele, canınız çıxsa da - DÖZÜN!

Siyasətdən qaçın... "İlan vuran ala çatıdan qorxar" məsəlini sırğa eləyib qulağınızdan asın və heç siyasətin həndəvərinə belə dolaşmayın!..

Bir də, siyasətə baş vursanız orada neynəyəcəksiz ki? Uzaq başı, haraydan-həşirdən salıb, haqdan, hüquqdan, nə bilim, ədalətdən-mədalətdən zəvziyəcəksiniz, düzdümü? Boş verin, - göy üzünə mismar çalmaq sizlik deyil! Nəyinizə lazımdı, onsuz da avtobusda, metroda ayağınızı tapdayanda çığırıb-bağırıb "pısınızı" yatırırsız da!..

Bax, dübarə deyirəm: birdən qəflət yuxusuna qərq olmuş vicdanınız diksinib oyanar və ağlınızın ucundan siyasətə qarışmaq kimi səfeh-səfeh fikirlər keçər...

Və şeytanın felinə uyub da hərzə-hərzə bəyan edərsiz ki: "-Yox, daha bıçaq sümüyə dirənib...Yetər! Zillətdən, təhqirdən, haqsızlıqdan boğaza yığılmışıq ta!.. Belə zəqqum taleyi yaşamaq istəmirik! Biz bu təpəgözlərdən Allahın bəxş etdiyi halalca ruzimizi, qismətimizi, haqqımızı, çörəyimizi, azadlığımızı tələb edirik! Alın tərimizin, göz yaşlarımızın, əllərimizin qabarının, yuxusuz gecələrdə çəkdiyimiz Ah-ların, alnımızdakı əzabl qırışların, bihudə itirdiyimiz ömrümüzün əvəzini istəyirik!"

Yox və yox, əzizlərim! Nəbadə belə hətərən-pətərən sözlər deyəsiz ha! Nəbadə belə axmaq-axmaq işlərə baş qoşasız ha!..Olmaz! Qətiyyən olmaz! Xatalı işlərdən nə qədər gen dursanız, başınız, ən əsası isə, başınızda əkilmiş cağba-cağ turp ləkləri salamat qalar... Öz qıcqırmış ayranınıza turş deyibən, özünüzü zibilə salmayın... Xülaseyi kəlam - əlöyküm salam! Özü yıxılan ağlamaz. Mən öz sözümü ərz elədim. Yəni sonradan heç kəs qayıdıb deməsin ki, "kaşki bu cürə qəşəng-qəşəng məsləhətləri vaxtında verən olaydı!.."

# Zəngəzur dəhlizinə nəzarət FTX-yə verilir?




**Dünən ADP İdarə Heyətinin növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantı zamanı dünyada və regionumuzda baş verən bir sıra ictimai-siyasi hadisələr müzakirə olunub.**

## ADP-dən bu iddialara sərt reaksiya; "Zəngəzur dəhlizinə nəzarəti Azərbaycan və Ermənistan həyata keçirməlidir"

İlk növbədə ötən həftə MDB Dövlət Başçıları Şurasının Moskvada keçirilən iclası ilə bağlı müzakirələr aparılıb. Müzakirələr zamanı qeyd edilib ki, bu toplantı zamanı MDB-yə üzv dövlətlərinin qarşısında onların müstəqil xarici siyasət yürütməsinin qarşısını ala biləcək şərtlərin irəli sürülməsi həmin dövlətlərin suverenliyinin məhdudlaşdırılmasına xidmət edir. Bu baxımdan, Azərbaycanın MDB çərçivəsi ilə özünün xarici siyasətini məhdudlaşdırması ölkəmizin suverenliyi və müstəqilliyi üçün real təhlükədir, xalqımızın maraqlarına uyğun deyil, özünü dünyadan təcridetmədir və Azərbaycanın gələcəyi üçün heç bir perspektivi yoxdur.

İdarə Heyəti ötən həftə Rusiya XİN-nin Mətbuat xidmətinin rəhbəri Mariya Zaxarovanın Cənubi Qafqaz ölkələrinə "Qərbin bölgədən çıxarılması" tələbi ilə ünvanladığı bəyanatı kəskin şəkildə pisləyib, bu hadisəni Cənubi Qafqaz ölkələrinin daxili işlərinə qarışmaq cəhdi kimi dəyərləndirib. Eyni zamanda qeyd edilib ki, bu hadisə Rusiyanın Ukraynaya təcavüzü nəticəsində düşdüyü beynəlxalq təcrid vəziyyətindən çıxmaq üçün uğursuz cəhdir. İdarə Heyəti hesab edib ki, tarixi təcrübə Azərbaycanın Qərblə əlaqələrinin, Rusiya ilə münasibətdə xalqımızın maraqlarına daha uyğundur, ona görə də Azərbaycan Qərblə əlaqələrini daha da genişləndirməlidir.

İdarə Heyəti son zamanlar bir sıra Avropa və Qərb institutlarının, o cümlədən hökumətlərinin Azərbaycanda siyasi məhbusların azadlığa buraxılması tələbi ilə eyni vaxtda həbsdə olan Qarabağın separatçı rəhbərlərinin "hərbi əsir" kimi qələmə verməsi və onların da azadlığa buraxılması ilə bağlı Azərbaycan hökumətinə çağırışlar etməsi məsələsinə də münasibət açıqlayıb. Qeyd edilib ki, Azərbaycan xalqına və dövlətinə qarşı terror törətmiş həmin şəxslərin "hərbi əsir" kimi qiymətləndirilməsi yolverilməzdir, bu münasibət ölkədə olan siyasi məhbusların azad olunmasına xalqın dəstəyini zəiflədir, Qərbin və Avropanın demokratik nüfuzuna xələl gətirir.

Eyni zamanda qeyd edilib ki, Avropanın mərkəzində Kataloniyanın müstəqilliyi uğrunda dinc mübarizə aparan şəxslərin həbsdə saxlanılmasından narahat olmayanların, Azərbaycan xalqına qarşı silahlı yolla ağır cinayətlər törətmiş şəxslərin həbsdən azad olubnmasının tələb edilməsi anoloji hadisələrə ikili standartlarla yanaşmanın bariz nümunəsidir ki, bu da Azərbaycandakı demokratik qüvvələrin Avropa və Qərblə əməkdaşlığının perspektivinə kölgə salır. İdarə Heyəti Azərbaycandakı siyasi məhbusların olmasından bəzi Qərb və Avropa institutlarının və hökumətlərinin sui-istifadə edərək müharibə canilərinin də azadlığa buraxılmasını tələb etməsinə son qoymaq üçün hakimiyyəti ölkədə siyasi məhbus probleminin birdəfəlik həll edilməsinə çağırıb.

İdarə Heyəti Qərbin və Avropanın iqtisadi gücünə alternativ kimi yaradılan BRICS təşkilatına Rusiyanın təşəbbüsü ilə Azərbaycanın da üzv olmağa meyilli olmasına münasibət bildirib. Hesab edilib ki, həmin təşkilatlarda birmənalı olaraq avtoritar tipli ölkələrin yer almasına və Azərbaycanın əsas beynəlxalq iqtisadi tərəfdaşlarının Qərb və Avropa dövlətləri olmasına rəğmən ölkəmizin həmin təşkilatda təmsil olunması xalqımızın istər iqtisadi, istərsə də siyasi maraqlarına ziddir.

İdarə Heyəti ötən həftə Zəngəzur dəhlizinə nəzarətin Rusiyanın FTX-nin əməkdaşlarına veriləbiləcəyi ilə bağlı Ermənistan Baş Naziri N.Paşinyan tərəfindən verilən açıqlamanı da müzakirə edib. Müzakirə iştirakçıları qeyd edib ki, Zəngəzur dəhlizinə nəzarəti və təhlükəsizliyinin təmin edilməsi Azərbaycan və Ermənistan birgə şəkildə həyata keçirməlidir. Üçüncü bir tərəfin həmin dəhlizə nəzarəti yolverilməzdir, çünki bu Azərbaycan və Ermənistanın suverenliyinin məhdudlaşdırılmasına gətirib çıxaracaq.

İdarə Heyəti son zamanlar orduda korrupsiya hallarının ortaya çıxmasıyla bağlı faktları da müzakirə edib, baş verənləri ölkənin təhlükəsizliyi üçün real təhlükələrdən biri kimi dəyərləndirilib və orduda korrupsiyaya qarşı mübarizənin xüsusi mexanizminin işlənib hazırlanmasının vacibliyini qeyd edib.

**Hazırladı: KƏNAN**

# Mədəniyyətimiz hansı əsaslar üzərində ucalır?

"Hürriyyət" qəzetinin 27.08.2024-cü il sayında jurnalist Aynur İsmayılın Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının direktor müavini Aytən Oktayqızı (Baxşiyeva) ilə müsahibəsinin ictimailəşdirildiyi "Azərbaycanda musiqi məktəblərini kimlər və nə üçün bağlamağa çalışırlar?" adlı kiçik yazısına rast gəldim. Yazının başlığını oxuya-oxuya, ortasındakı milli musiqimizin bəzi korifeylərinin bir qədər pərişan çöhrələri və sanki millətimizin, cəmiyyətimizin, dövlətimizin üzünə zillənmiş tənəli baxışları gözümə sataşdı...

*(Əvvəli ötən sayımızda)*



Ölkədə qurulan əcaib sistem bolşevizmin yaratdığı ağır şəraitdə müəyyən inkişaf yolu keçərək yüksək səviyyədə formalaşmış mədəniyyət sahələrimizi, ilk növbədə isə musiqimizi, ədəbiyyatımızı bayağılaşdırmış oldu

Musiqi mədəniyyətimizin belə vunderkindlərindən biri, ən məşhuru Bəhram Nəsibovun yaratdığı mahnı musiqiləri dillər əzbəri olsa da onun mahnıları ictimaiyyətə daim "xalq musiqisi" kimi təqdim edilib. SSRİ dağıldıqdan sonra müstəqillik qazanan Azərbaycanda normal bir iqtisadi sistem qurulmalı idi ki, bu iqtisdai sistemin üzərində ucaldılan ictimai sistemlər, ilk növbədə insanların normal həyatı, bütövlükdə cəmiyyətimizdəki ictimai proseslər cəmiyyətimizin, millətimizin və dövlətçiliyimizin sürətli inkişafına yönəlsin, ilk növbədə isə hüquqi, inzibati, təhsil, tibbi xidmət sistemləri qurmaq mümkün ola bilsin. Lakin ölkədə qurulan əcaib iqtisadi sistem və onun üzərində qurulan hüquqi və inzibati sistemlər bolşeviklərdən miras qalıb, ancaq qul hüququnun reallaşdırılmasına hesablanmış təhsil və tibbi xidmətlə yanaşı, bolşevizmin yaratdığı ağır şəraitdə müəyyən inkişaf yolu keçərək, xeyli yüksək səviyyədə formalaşmış mədəniyyət sahələrimizi, ilk növbədə isə musiqimizi, ədəbiyyatımızı bayağılaşdırmış oldu.

Təbii ki, bütün bunlar mənəviyyat və əxlaq normalarımızdan yan keçə bilməzdi. Cəmiyyət üzvlərinin mütləq çoxluğunun maddi ehtiyac burulğanında boğulması, hüququn formal olaraq ancaq kağız üstündə mövcudluğu, hakimiyyətin qanuna deyil, məmurun sahiblik hüququ ilə mülkiyyətinə verilməsindən doğan məmur özbaşınalığı və sonsuz saylı ağırlı-yüngüllü cəzasız cinayətlərinin baş alıb getməsi, təhsilin, tibbi xidmətin alver vasitəsinə çevrilməsi, musiqi mədəniyyətimizin, mənəvi, əxlaqi dəyərlərimizin də məhv edilməsinə yönəldilməyə bilməzdi.

Ölkənin ciddi musiqi korifeylərinin davamçılarının sonuncu moqikanı olan bəstəkar Cavanşir Quliyev təxminən 20-25 il öncə Azərbaycandan məcburən Türkiyəyə mühacirət edəndə, jurnalistin sualını, - "Mən inanmıram ki, bundan sonra Azərbaycanda ciddi musiqi inkişaf etsin", - sözlərilə cavablandırmışdı.

Bu gün televiziyalarda, toylarda, konsert salonlarında yarımlüt, gözəl musiqi, insanı düşündürə biləcək mahnı sözləri əvəzinə, mənasız, bəzən də əxlaqsız sözlərdən ibarət məzmunlu, bayağı musiqi sədalarının müşayiəti ilə bədənlərinin əzalarını oynadaraq tamaşaçının diqqətini cəlb etməklə məşğul olan üzdəniraq müğənnilər tele-ekranda hegemonluq edir. Yəni bu gün mövcud olan quruluşa və onu idarə edənlərə hər hansı bir janrdan olan ciddi bədii söz və ya musiqi maraqlı deyil.

Bu baxımdan Aytən xanımın musiqi məktəblərinin Mədəniyyət Nazirliyinin vəsaitinin az olması bəhanəsilə bağlanılacağı barədə həyəcan təbili qaldırması heç də əsassız görünmür.

Hər hansı bir sahənin inkişafının ilkin şərtlərindən biri onun kütləviliyidir. Məsələn, idman sahəsində müxtəlif çaplı məşhur idmançıların yetişməsinin həmin ölkədə bu idman növlərinin kütləvi yayılması ilə birbaşa əlaqəli olması aksiomadır. Məşhurlaşan idmançının həmin idman növü ilə peşəkar olaraq fəaliyyətini davam etdirməsi isə, onun maddi maraqlarını bu peşəkarlığın hansı dərəcədə təmin etməsidir. Bu gün Azərbaycanda peşəkar musiqiçi, tibb mütəxəssisi, təhsil işçisi, elmi işçi və s. kimi sahələrdə çalışanların yüksək peşəkarlığa malik olması və ciddi, səmərəli fəaliyyəti üçün heç bir maddi maraq mexanizmi mövcud deyil. Əksinə dövlət mexanizminə hər hansı bir bağlılığı olan bütün sahə, ixtisas, vəzifələrdə çalışanlar üçün maddi və karyera maraqlarının təmin edilməsi rüşvətxorluq, qohumbazlıq, yerlibazlıq iqtisadi və vəzifə cinayətləri meyarları ilə sıx bağlı olduğundan, üstəlik hüquq mühafizə, nəzarət, yerli və mərkəzi idarəetmə orqanları tərəfindən ayrı-ayrı fərdlərin, qrupların müstəqil və qanuni fəaliyyətini bloklamaq üçün qanunvericilikdə məqsədli şəkildə, əvvəlcədən yetərincə boşluqlar qoyulması ilə bərabər, məmur iradəsinin qanundan üstünlüyünün təmin edilməsi -milli mövcudluğumuzun eyni zamanda bütün sahələrdə çökdürülərək məhv edilməsinə yönəldilən məkrli kompleks tədbirlər Azərbaycanda ölkənin bütün sahələrini xərcəng xəstəliyi kimi məngənəyə almış, böyük və iqtisadi, təşkilati, texniki cəhətdən imkanlı düşmən təşkilatının mövcudluğundan xəbər verir.

Müxtəlif məzmun və xüsusiyyətərə, təyinatlara malik olan məhsulların istehsal edilməsi üçün bu məhsulların özəl xüsusiyyətlərinə uyğun həmin məhsulu istehsal etmək üçün zəruri imkanlara malik olan dəzgahların mövcud olması qaçılmaz olduğu kimi, cəmiyyətin ictimai sahələrinin bizim tələblərimizə uyğun fəaliyyət göstərməsi məqsədilə onların məhz bu məzmunda fəaliyyət göstərməsini zəruri olan şərtlərlə təmin edə biləcək iqtisadi sistemin qurulması əsas məsələdir.

Məsələn, hər hansı bir parçanın bizə lazım olan ölçü və formada tikilərək paltara çevrilməsi üçün hökmən tikiş maşının, əlavə qayçı və s. kimi köməkçi alətlərin olması, müəyyən metal detalların hazırlanması üçün tornaçı dəzgahı və digər köməkçi alətlərin lazım olduğu kimi, cəmiyyətdə bizim istədiyimiz xüsusiyyətlərə malik olan ictimai sistemlərin, o cümlədən hüquqi, inzibati, təhsil, tibbi xidmət, mədəniyyət və s. sistemlərin mövcudluğu və fəaliyyəti məqsədilə həmin sistemlərin fəaliyyətinin maddi, hüquqi, inzibati təminatını mümkün edə biləcək iqtisadi quruluş qurulmalıdır. Əks halda onlar biz nəzərdə tutduğumuz, arzuladığımız məzmun və mahiyyətdə fəaliyyət göstərə bilməzlər.

1992-ci ildən bəri ölkədə ictimai sistemləri məhz bugünkü məzmun və mahiyyətdə fəaliyyət göstərməyə məhkum edən və bu gün də buna imkan verən, məcbur edən iqtisadi sistem məqsədli şəkildə bu məzmun və mahiyyətdə qurulmuşdur. Bu sistemi idarə edən şəxslər, qruplar hətta eyni gündə tam heyətdə istefa verərək başqa adamlardan ibarət heyətlə əvəz edildiyi halda belə, nə iqtisadi, nə də ictimai sistemlərin heç birində, heç bir əsaslı dəyişikliyin baş verməsi mümkün deyil. Lakin, hətta sistemi idarə edən insanlar tam heyətdə qalıb, sistemin məzmun və mahiyyəti əsaslı olaraq dəyişdiyi halda bu günkü sistemi idarə edənlərin, yeni sistemi bu gün idarə etdikləri üsul və vasitələrlə idarə etməsi imkansız olacaq.

Bu gün hakimiyyəti idarə edənlərin və hakimiyyətdən kənarlaşdırılan və kənarlaşdırılması real ola bilən iriçaplı məmurların arasında gah gizli, gah da ara-sıra özünü açıq biruzə verən hakimiyyət uğrunda mübarizəsi, hakimiyyəti ələ aldıqdan sonra ölkədə normal iqtisadi-ictimai quruluş yaradılması vasitəsilə cəmiyyətdə dayanıqlı sabitlik, isti vətəndaşq-hakimiyyət münasibətləri şəraitində ölkəmizin bütün alanlarda yüksək sürətlə inkişafını təmin etmək deyil. Hər iki tərəf ölkəni və vətəndaşları hüdudsuz və cəzasız qarət edərək, bəd ayaqda daşıyıb müxtəlif ölkələrdə leqal və qeyri-leqal olaraq yerləşdirdikləri milyardlar, milyonlar vasitəsilə özlərinin və gələcək nəsillərinin firavan yaşamasının təmin edilməsi məqsədini güdürlər.

Çünki, onların hamısı sadə vətəndaşlara insan kimi normal yaşamaq imkanı verən şəraiti zor, qanunsuzluq, rüşvət, məmur özbaşınalığı vasitəsilə imkansız etməklə qollarına vurduğu qandalı, iqtisadi imkansızlığı ucbatından bu zülmdən qaçıb başqa ölkələrdə yaşamaq imkanınından məhrum edilməklə ayaqlarına vurulan qandalları qırmaq üçün "olum ya ölüm" mübarizəsinə qalxaraq onların Qəddafi, Çauşesku, Səddam Hüseyn, ən yaxşı halda isə Məhəmmədrza Palani taleyi yaşadılacaqlarını yaxşı bilirlər.

"Ümid sonda ölür", - deyib bəşərin aqilləri. Bu gün milləti və ölkəni qarət edənlərin öz hakimiyyətini bu günkü "əsas cinayətkar" statusunda deyil, vətəndaşların rifahının, ölkənin inkişafının qarantı statusunda öz hakimiyyətini saxlayaraq, ölkəni normal qaydalarda idarə etmək və vətəndaşların demək olar ki, son nəfərinə kimi hakimiyyətini dəstəkləyəcəyi iqtisadi-ictimai quruluşun yaradıla biləcəyini, özünün bu sahədə savadsızlığı və ya hüdudsuz, ən ağır cinayətlər törədərək cəzasız qalmalarını labüd edən bu günkü mövcud quruluşdan keyflənib, real düşünmək qabliyyətini itirdiyindən dərk edə bilməyən hakimiyyət yetkililəri, bu gün mövcud olan quruluşun və onun labüd quldurluq üsulu ilə idarəetmə sisteminin dəhşətli faciələri ilə üzləşdiyi zaman düşünmək istəsə belə, artıq gec olacaq. "Daldan atılan daş, topuğa dəyər". Bu halda ölkədə yaranacaq dözülməz şəraitin acı meyvələrini cəmiyyətin adi üzvləri olan sadə vətəndaşlar da dadmağa məhkum edilmiş olacaqlar. Bu da həyatın qaçılmaz, obyektiv qaydasıdır.

*(Ardı var)*

**Şapur QASİMİ**

Böyük şair Məmmədhüseyn Şəhriyar deyirdi: "Şəhidlik bir səadət ki, hər kəs ona yetə bilməz". Bəli, hər bir şəhid ömrü Vətənimizin ucalığıdır. "Şəhidlər ölməz, Vətən bölünməz",- deyirik. Vətən, torpaq yollarında şirin canlarından keçmiş hər bir şəhidimizin xatirəsi bizim üçün çox əzizdir. Onların ruhu qarşısında ehtiramla baş əyirik. Yeriniz cənnətlik olsun, deyirik.



"O, şəhid olandan sonra mən şirniyyat bişirməyi tərgitdim..."

# "O, əsl Azərbaycan kişisi idi"

## Sevinc Orucova: "Raquf Orucov çətin məqamlarda hələ də bizə aydın, işıqlı yol göstərir"

### "Adam elə bil ki, hərbçi olmaq üçün doğulmuş, həyata komandir olmaq üçün gəlmişdi"

Bu gün biz şəhidlik zirvəsinə ucalmış Aprel döyüşləri şəhidi, "Murov qartalı" adı ilə tanınan polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri, Vəkillər Kollegiyası Rəyasət Heyətinin üzvü Sevinc xanım Orucova ilə iş yerində söhbət etdik. Məqsədimiz Qarabağ uğrunda qəhrəmancasına vuruşmuş, ürəyi həmişə Vətən məhəbbəti ilə döyünmüş, 2016-cı ildə Aprel döyüşlərində şəhid olmuş, polkovnik-leytenant Raquf Orucovun qısa, lakin çox şərəfli ömür yolu ilə daha yaxından tanış olmaqdır.

***- Sevinc xanım, öncə Raquf bəy kimi igid, vətənpərvər, qəhrəman bir oğul haqqında həyat yoldaşı olaraq bizə müsahibə verdiyinizə görə sizə minnətdarlığımızı bildiririk. İlk öncə əhvalınızı bilmək istərdik...***

- Təbii, indi Vətən müharibəsi şəhidlərinin ildönümləridir. Qəhrəman şəhidlərimizin dördüncü ildönümlərini yaşayırıq, onların ailə üzvləri ilə görüşürük, acılarımızı paylaşırıq. Həm də qürur duyulası günlər yaşayırıq. Torpaqlarımızın dörd il bundan öncə hər gün azad olma xəbərlərini eşidirdik. Eyni zamanda, qəhrəman oğullarımızın şəhidlik xəbərini alırdıq, qürurla kədər bir arada. Elə bir gündə sizinlə qarşılaşırıq. Mən sizə təşəkkür edirəm ki, belə bir mövzunu işıqlandırırsınız.

***- Sizin üçün şəhid xanımı olmaq nə deməkdir?***

- Bilirsiniz, mən şəhidliyə, o məqama, onun anlayışına uca zirvə kimi baxıram. Şəhidlik çox uca bir zirvədir. Mən deyərdim ki, igid oğulların şəhidlik məqamı ən təmiz bir zirvədir. Allah hər bir şəhid qəhrəmanımıza rəhmət eləsin! Onlar özlərinə cənnəti qazanmış insanlardırlar.

Raquf Orucov kimi qəhrəmanla eyni həyatı paylaşmaq, onunla eyni çətin yolları getmək, onun adını daşımaq böyük qürurdur, fəxarətdir. Həm də qəhrəmanın bir ailə üzvü kimi onun şəhidliyi haqda danışmaq, onunla bağlı xatirələri paylaşmaq, onun şəhidliyinin acısını, kədərini yaşamaq qürur verməklə bərabər, böyük kədər hissi verir.

***- Əlbəttə, on illər keçsə də, Raquf bəyin yeri sizin qəlbinizdə boş qalacaq, onun yoxluğu ilə heç zaman barışa bilməyəcəksiniz. Bəs, xanımı, ömür-gün yoldaşı olaraq Raquf bəyi necə xarakterizə edərdiniz?***

- Mən həmişə söyləyirəm, ən yaxşı dostları, səngər yoldaşları onun haqqında danışa, izah edə bilərlər. Çünki Raquf bəy onlarla çox zaman keçirdi. Bizim 17 illik ailə həyatı dövründə həmişə çalışırdıq ki, onun yanında olaq. O, çətin bölgələrdə xidmət edib. Raquf bəy çox mərd insan idi. Məni də, övladlarını da öz xarakterinə o qədər uyğunlaşdırmışdı. Mərd, sözü bütöv, əqidəli, çox ağır təbiətli idi. Onda əsl



Azərbaycan kişisinin forması var idi. Eyni zamanda, cəsur idi, heç nədən qorxmazdı. Adamda qorxu hissi yox idi. Adam əsl kəşfiyyatçı idi. Hərbçi geyimindən başqa, mülki geyimi çox az idi. Ümumiyyətlə, az alardı, az istifadə edərdi. Həmişə hərbi geyimdə özünü çox rahat hiss edərdi. Adam elə bil ki, hərb üçün, hərbçi olmaq üçün doğulmuşdu, həyata komandir olmaq üçün gəlmişdi. Əsgər geyimi ona o qədər yaraşırdı ki. Yenə də deyirəm ki, o, sanki vətən üçün yaranmışdı.

Əlbəttə, Raquf Orucov kimi insanın itkisi haqqında danışmaq çox çətindir. Onun əqidəsi haqda sağlığında özünə də deyirdim. Deyirdim ki, bizi də özün kimi əqidəli insan kimi tərbiyə etdin. Bizi deyəndə, yəni özümü, övladlarımızı nəzərdə tuturam. O qədər əqidəli, dürüst insan idi ki, özü cismən olmasa da, nəsə bir plan quranda öz-özümə deyirəm ki, görəsən, Raquf bəy özü sağ olsaydı, buna icazə verərdimi? Həmişə onu düşünürəm. Yəni o qədər onun sərhədləri var idi. Ciddi ailə başçısı idi.

Raquf bəyin 3 qardaşı var. Həmişə özləri də deyir ki, biz heç birimiz onun xarakterində deyilik.

***- Necə deyərlər, "insan dünyadan köçür, xatirələri qalır". Onunla bağlı xatirələr tez-tez gözləriniz önünə gəlir?***

- Heç unutmadıq ki. Əlbəttə, başqalarını deyə bilmərəm, mənim üçün bu gün də həyatımızın bir parçasıdır.

***- Yəqin ki, tez-tez yuxularınıza da gəlir. Yuxularınızda sizə hansısa bir sözü olub?***

- Ən çətin anlarımda ruhən də olsa, dəstəyini mən və övladlarımız hiss eləmişik. Hansı ki, övladlarımızla bağlı qərar qəbul edəcəyimiz anlar olub. Bizim kiçik oğlan iki universitet seçimi arasında qalmışdı. Çox çətin bir məqam idi. Elə bil çətinlik olanda yuxularda yol göstərir. Bizə aydın, işıqlı yol göstərir. Elə günümüz, anımız olmayıb ki, Raqufu düşünmədən keçsin. Elə bir şey ola da bilməz ki, biz Raquf bəyi düşünməyək, onda həyatımızın sonu olar, biz yox olarıq.

***- Ümumiyyətlə, nələr onun maraq dairəsində idi?***

- Sizi inandırım, onu hərbidən başqa heç nə maraqlandırmırdı. Hətta evə məzuniyyətə gələndə belə, vaxtından tez qayıdardı. O qədər Vətəninə, elinə, obasına bağlı insan idi ki, onun fikri, zikri ancaq müharibə başlansın, torpaqları azad etmək uğrunda döyüşə atılsıng Deyirdi ki, əmr verilən kimi öndə özüm gedəcəm. O, adam mülkü həyatın insanı deyildi. Onun azca boş vaxtları olardısa, kiçik övladımıza vaxt ayırırdı. Elə də vaxtı olmurdu. O insanın dünyəvi nemətlərə marağı olmayıb. Ancaq hərbi geyimdə Vətənə xidmət etməyi düşünüb.

***- Sizə, arzularından bəhs edirdi?***

- Həmişə deyirdi ki, övladlarımız savadlı olsunlar, oxusunlar. Ən böyük istəyi o idi. Övladlarımızın təhsili onun üçün ən böyük ümdə vəzifə idi. Onların qarşısına qoyurdu ki, mütləq oxumalısınız, yaxşı təhsilə sahib olmalısınız. Çox təəssüf ki, ardıcıllıqla qoyduğu qaydalar həyata keçdi, amma özü o günləri görmədi.

***- Maraqlıdır, məzuniyyətə gələndə sizdən hansı yeməyi bişirmənizi istəyirdi? Ən çox hansı yeməyi sevirdi?***

- Ən çox sevdiyi yemək dovğa idi. Yəqin ki, çox az adam dovğa sevir, amma o çox sevirdi. Kələm dolmasını sevirdi. Şirniyyatları çox sevirdi. Həmişə özü gələ bilməsə də şəhərdən kimsə gedirdisə mütləq onları hazırlayırdım. Özünün xüsusi yemək qabları vardı, mütləq onları göndərirdik. Hətta şəhidliyindən öncə evə gəlmədən getmişdi. Yəni şəhərə gəlmişdi, amma evə dönmədən hərbi hissəyə dönmüşdü. O yeməkləri hazırlamışdım. Dedim ki, bəs necə olacaq, yeməklər qaldı axı, kiminləsə göndərim? Dedi ki, ehtiyac yoxdur, lazım deyil. Amma həmişə sevdiyi yeməklər onlar idi ki, hazırlayıb göndərirdim. O, şirniyyat yeməyi çox sevirdi. İnanın Raquf Orucov şəhid olandan sonra mən daha şirniyyat bişirmədim. Demək olar ki, artıq şirniyyat bişirməyi tərgitdim.

***- Qəhrəman şəhidimizin xanımı olaraq, onun üçün nələri etmədiyinizə görə hələ də özünüzə yer tapa bilmirsiniz?***

- Çalışırdım ki, həmişə yanında olum. İndi ən böyük təskinliyim odur ki, nə çətinliyi olur-olsun, mən onu heç vaxt tək qoymadım. Murovundan tutmuş, Haramının düzünə qədər, mən onu tək qoymadım. Yəni harda o çətinliyi yaşadısa mən də onun yanında oldum. Ailə olaraq, çətinlik olanda da birgə qarşılayardıq. Həyatın çətin dönəmində də, ən çətin məqamlarında da arxasında durmağa çalışdım. Az da olsa, bununla özümə təskinlik tapa bilirəm. Ən ağır, ən çətin günlərimizi bir yerdə keçirdik. O problemləri birgə aşdıq, birgə dəf elədik.

***- Sevinc xanım, deyirsiniz ki, Raquf bəylə ən ağır, ən çətin günlərinizi bir yerdə keçirdiniz. Bəs, son günlərini necə xatırlayırsınız?***

- Son günü mart bayramı idi. Çox şiddətli yağış yağırdı. Çox az olardı ki, o, bayramları evdə olsun. Təsadüfən zəng etdi ki, mən də gəlirəm. Onun evə gəlişi həmişə toy-bayram olurdu. Axırıncı çərşənbə bayramı idi. Çöldə də güclü çovğun var idi. Qardaşlarına zəng etdim ki, Raquf gəlir, hamınız gəlin. Toy-bayramdı. Onun son bir şəkili var, qapımızdan çıxanda uşaqlarla bir yerdə hərbi geyimindəg Dedi çox vaxtım yoxdur, yarımca saat evə dəyib çıxacam. Axşam idi. Süfrədə yığıldıq, oturduq. Hətta böyük oğlan Aqşin aşağı tonqal ətrafına düşmüşdü. Evdə yox idi, atası ilə qapı çıxışında görüşdü. Birdən durub gedəndə hərbi geyimdə idi, qardaşı uşaqları başına yığıldı, qaynım dedi ki, gəl sizin şəkilinizi çəkim. Elə o şəkil son şəkil oldu, uşaqların xatirəsində. Dörd uşaq ətrafına yığıldı, onunla o şəkili çəkdirdilər. Hamısı qürurla dayanıblar. Hamısı gülərüzlü, sevincli dayanıblar. Ən axırıncı, sonuncu da o şəkil oldu.

***- Məzuniyyətə gələndə ailəvi istirahətə üstünlük verirdi, yoxsa...***

- Yox. Heç ailəvi istirahətimiz olmadı. Hamı şəkil paylaşır. Deyirəm, vallah, bizim o günümüz olmayıb ki, həmin günlərimizin şəklini paylaşaq. Biz düşünürdük ki, nə zamansa müharibə bitər, təqaüdə çıxar, xoş günlər ondan sonra başlayar, ondan sonra biz özümüzə vaxt ayırarıq. Heç bizim ailəvi şəkilimiz olmadı. Həmişə biz harasa getmək istəyəndə özümüz gedirdik, digər ailə üzvlərimizlə, qayınlarımla. O, deyirdi ki, mən xidmətdəyəm, vaxtım yoxdur, hərbi hissəni qoyub çıxa bilmərəm.

***- Siz onunla evlənəndə bilirdiniz ki, hərbçi ilə ailə həyatı qurursunuz. O zaman ailə həyatı quranda çətinliyə sinə gərməyə mənən hazır idiniz?***

- Bu qədər çətin olacağını həqiqətən də təsəvvür etməmişdim. Sonra Murovun çətinliyini gördükcə bərkidik. Bilirsiniz, ən böyük çətinlik o dövrdə idi. O çətin illərdən 20 ildən artıq vaxt keçib. Getdikcə çətinlikləri gördükcə deyirsən ki, o nə çətinlik idi ki. Hər bir çətinlikdə Raquf bəy arxamızda idi. Bütün çətinliklərimizi özü həll edirdi. Çətinlik bu idi. Ən böyük çətinlik insan itkisidir. İnsanın yoxluğudur. Ən böyük çətinliyi indi yaşayırıq(kövrəlir".

***- Övladlarınızın atasının yolunu davam etdirməsini, hərbçi olmasını istərdiniz?***

- Bu, onların seçimidir. Məncə, hər adam da hərbçi ola bilməz. Hər adam o çətin yükü, çətinliyi daşıya bilməz. Mən o çətin yükü də övladlarıma yükləyə bilmərəm. Özləri istəməli, özləri arzulamalıdır. Hərbçi olmaq üçün də insanda böyük güc, qüvvət lazımdır. Oğlumuzun biri Dövlət İctimai Münasibətlər fakültəsini oxudu. Biri də Kompüter Mühəndisliyi üzrə oxuyur. Harda olurlar olsunlar, mən əminəm ki, onlar da öz olduqları mövqedə, oxuduqları məqamda, vəzifədə mütləq ataları Raquf Orucov kimi Vətənə, millətə xidmət edəcəklər.

**Söhbətləşdi:**
**Fuad BİLƏSUVARLI**

# “Elmar Vəliyev deyir ki, dövlət də bizik, dövləti idarə edən də”

## Torpaq sahəsi əlindən alınan qazi keçmiş icra başçısının oğlundan şikayətçidir



**Gəncə şəhər sakini, 44 günlük Qarabağ müharibəsinin iştirakçısı, qazi İsmayılov Elşən Arzuman oğlu tərəfindən “Hürriyyət”in redaksiyasına növbəti şikayət məktubu daxil olub. Prezident İlham Əliyevə və digər səlahiyyətli qurumların rəhbərlərinə müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

**“Cənab Prezident!**

Mən, Gəncə şəhər sakini, II Qarabağ müharibəsi iştirakçısı, qazi İsmayılov Elşən Arzuman oğlu, yazaraq Sizdən xahiş edirəm ki, bizə köməklik göstərəsiniz.

Bu günə kimi heç kəsin malında gözü olmayan adamlarıq. Nəyimiz var, nəyimiz yox, ona qane olmuşuq. Yuxarıda da qeyd etdiyim kimi, qaziyəm, 1 qrup gözdən əliləm.

Hazırda haqqımı istədiyim üçün təhdid olunuram. Xanlar Vəliyevin adından istifadə edən qardaşı oğlu, Gəncənin keçmiş icra başçısı Elmar Vəliyevin oğlu Elmir Vəliyev məni və yaxınlarımı təhdid edir. İnanıram və güvənirəm ki, mənim bu müraciətim cavabsız qalmayacaq.

Qeyd edim ki, sərəncamla 116.0 kv metr torpaq sahəmiz var. Əlimdə qanuni sənədim olsa da, Elmir Vəliyev həmin torpaq sahəsini məndən almaq istəyir.

Dəfələrlə müraciət etmişəm, bildirmişəm ki, bu yer mənimdir, imkan verin mən də bu yerdən faydalanım. Yarımcan adamam, ən azından sən evində rahat yatanda mən canımı qoymuşam, bir gözümdən olmuşam. Mən heç kəsin yerini, məkanını zəbt etmirəm. Mənim olana sənəd çıxarmaq istəyirəm, əlimdə sərəncamım var.

“Grand bazar”ın rəhbəri Mahmud məni təhdid edir. Mənə deyirlər ki, “Elmir Vəliyev sifarişlə adam öldürəndir, ondan uzaq dur”. Qeyd edim ki, Mahmud Elmar Vəliyevin oğlunun adına olan bazarda pulyığandır.

Elmir Vəliyev və Mahmud açıq-aşkar mənə deyirlər ki, nə etsən də, bu yeri sənə verəsi deyilik, dövlət də bizik, dövləti idarə edən də.

Mən, haqqımı hansı məmur balasına verməliyəm? Oddan, topdan, tüfəngdən qorxmayan oğlan heç harınlamış məmur balasının qarşısında aciz qalarmı?!

Onu da deyim ki, Daşınmaz Əmlak Komitəsinin keçmiş müdiri Kərəm Həsənovla Elmar Vəliyev qudadır. Özləri verdiyi sərəncamı bu gün “düzgün sənəd saymırlar”. Biz oranı pulsuz almamışıq, pulumuzu verib almışıq. Emir Vəliyev mənə deyir ki, apar o sərəncamı kağız kimi başqa yerdə... istifadə et. Görün, bunlar nə qədər harınlayıblar ki, dövlətin verdiyi sənədi hara layiq görürlər.

İnanıram ki, Xanlar Vəliyevin bu şantaj məsələsindən xəbəri də yoxdur. Onu da bilirəm ki, Azərbaycanın bütövlüyü uğrunda canından, qanından keçmiş qazilərə və şəhidlərə necə hörmətlə yanaşır. Mən müharibə iştirakşısı, 1 qrup əlil kimi, xahiş edirəm ki, onun adı ilə məni təhdid edənlərə qarşı bir tədbir görsün.

Torpağa sənədi Elmar Vəliyevin müavini Məharət bəy verib. İndi Zaur adlı şəxs bizim qarşımızı kəsərək, bizi ora buraxmır. Mənim çörək pulu qazanmağıma mane olurlar.

19.09.2024-cü il tarixində, günorta saatlarında Mahmud adlı şəxs zəng edərək, bizi bazara çağırdı. Fikirləşdim ki, yəqin razılığa görə çağırır. Təəssüflə qeyd edirəm ki, Azərbaycan Respublikasının vətəndaşı olan Mahmud və Elmir Vəliyev mənə və digər müharibə iştirakçılarına, “sizi gərək erməni öldürərdi, sizi öldürməməklə ən böyük səhv ediblər”, -dedilər(Digər lazımsız söz-söhbətlər də oldu, mən də o söyüşlərin qarşısında susa bilməzdim).

Mən şərəfimlə, ləyaqətimlə vətənimin keşiyində durub, sağlamlığımı vermişəm. Onlar kimi evdə və yaxudda çarpayının altında gizlənməmişəm. Bir gözümdən olmuşam, amma vətənim üçün tək gözümü yox, canımı da verməyə hazıram. Mənim ailəm - atam, anam mənə belə tərbiyə verib. Mən kiminsə bir tikə çörəyini əlindən alıb, atama və yaxud da əmimə güvənən adam olmamışam. Bəli, hər gecə gözümü yumanda o ağrı-acıları çəksəm də, hələ müharibənin səsləri beynimdən getməsə də bu gün də deyirəm ki, canım sənə qurbandı Azərbaycan! Və bunu söz xatirinə yox, bir Azərbaycan kişisi kimi ürəkdən deyirəm.



**Cənab Prezident!**

Mən, sizdən ev, maşın və yaxud da torpaq, villa istəmirəm. Mənə və ailəmə aid olan, qanuni torpağımı istəyirəm. Elmar Vəliyev və oğlu bir qazinin torpağına göz dikir, buna susmayın”.

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq***



# Bankdan 44 min manat kredit götürdü, 1 gün sonra evindən oğurlandı

## Qobustan sakini deyir ki, polisə müraciət etsə də, oğru aylardır tapılmır

**Qaradağ rayonu, Qobustan qəsəbəsi, Massiv 1 A sakini Nağılı Cavid Təbriz oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi saytımız vasitəsilə Daxili İşlər Nazirliyinə müraciət edir.**

“Yazaraq bildirirəm ki, 7 iyul 2024-cü ildə, səhər saatlarında evimizdən oğurluq olub. Həmin gün səhər saat 7:20-də ailəvi olaraq uşağın imtahanı səbəbindən evdən çıxmışdıq.

İpoteka kreditinə müraciət edib, bankdan 44 min manat pul götürmüşdük. Pulu evdə paltar səbətinin içində gizlətmişdik. İmtahan bitdikdən sonra evə qayıdanda gördük ki, qapı sadəcə örtülü vəziyyətdədir, açarla bağlanılmayıb. Yataq otağına keçəndə isə gördük ki, pul olan çanta boş şəkildə yerə atılıb. Çantada olan 44 min manat pulun hamısı oğurlanmışdır.

DİN-in 102 xidmətinə dərhal məlumat verdik, gəlib əl izlərini götürdülər, qonşular dindirildi. Hadisədən 3 ay keçməsinə baxmayaraq, hələ heç bir xəbər yoxdur.

Məsələ ilə bağlı Daxili işlər Nazirliyinə getmişəm, həmçinin ərizə ilə də müraciət etmişəm. General Arzu müəllimində qəbulunda olmuşam. Sağ olsun, zəng vurub Qaradağ polisinə göstəriş verdi. Ondan sonra Qaradağ polis rəisi məni qəbul etdi.

Bakı şəhər Baş polis İdarəsinə və Nazirlər Kabinetinə də məsələ ilə bağlı məlumat vermişəm. Hər bir qrum söz verir, lakin həbs olunan yoxdur.

Onu da qeyd edim ki, keçən il qonşunun evinə də oğru girmişdi, polis tapa bilmirdi. Daxili işlər naziri Vilayət Eyvazovun qəbulunda olandan sonra oğru tapıldı. Mən də Vilayət Eyvazovun qəbuluna düşmək istəyirəm, alınmır.

Rəsmi qurumlardan xahiş edirəm ki, mənim işimə ciddi yanaşsınlar”.

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən Hurriyyet.az-a bildirildi ki, vətəndaş Cavid Nağılının müraciəti əsasında Qaradağ RPİ-nin 11-ci Polis Bölməsində araşdırma aparılır və araşdırmanın nəticəsindən asılı olaraq müvafiq qərar veriləcək.

**Jalə FAMİLQIZI**

# Lənkəran sakini AQTA tərəfindən qanunsuz olaraq cərimələndiyini iddia edir




**Lənkəran rayonu, Şıxəkəran kənd sakini Tahirov İlkin Qurban oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, səbəbini bilmədən Azərbaycan Qida Təhlükəsizlik Agentliyi (AQTA) tərəfindən 1500 manat məbləğində cərimə olunub:**

“Mən, Tahirov İlkin Qurban oğlu, yazaraq sizdən xahiş edirəm ki, şikayətimi dərc edəsiniz. Bildirim ki, mən Lənkəran rayonunda qəssab işləyirəm. İndiyə kimi Azərbaycan Qida Təhlükəsizlik Agentliyindən (AQTA) mənə müraciət edən olmayıb. Mənə məlumat verilməyib ki, yeni kəsim yeri açılıb, heyvanlarımızı daha orada kəsməliyik. Amma digər qəssablara yaxınlaşıb, bildiriş verib xəbərdarlıq ediblər.

AQTA-nın əməkdaşları obyektimə çəkiliş ilə gəldilər. Mənim də obyektim çox təmiz və səliqəli yerdir. Qeyd edim ki, yeni obyekt tikmişəm. Səbəbini belə, bilmədən məni 1500 manat məbləğində cərimə etdilər. Soruşdum ki, hansı səbəbə görə məni 1500 manat məbləğində cərimə edirsiz? Guya sizin orada kəsim yeriniz düzdür? 17 və ya 19 manat qəbzdə pul yazılıb, 59 manat pul alırlar. Üstəlik, həmin yer natəmizdir.

Kimə dərdimizi deyək? Bu hal təkcə Lənkəran rayonunda yaşanır. Məni ona görə 1500 manat cərimə etdilər ki, maşınım, obyektim var.

Digər qəssab yoldaşımı isə 4 min manat məbləğində cərimə ediblər. Veriblər məhkəməyə, həmin şəxsin pensiyasından hər ay 100 manat tuturlar. Başqa bir qəssab dostumu isə 900 manat cərimə ediblər.”




Vətəndaşın şikayəti ilə bağlı 04.10.2024-ci il tarixində Azərbaycan Qida Təhlükəsizlik Agentliyinə (AQTA) sorğu ünvanlasaq da, hələ də redaksiyamıza məlumat verilməyib. Məsələni diqqətdə saxlayacağıq.

**Aynurə İSMAYIL**

# Gürcüstanın taleyi

**Məlum olduğu kimi, 2024-cü ilin 26 oktyabrında Gürcüstanda parlament seçkiləri baş tutacaq. Beləliklə, payızın sərin bir ayı olan oktyabr Gürcüstanda çox alovlu keçəcək. “Gürcü arzusu”nun sponsoru Bidzina İvanaşvili seçkilərdə qələbə əldə etməyin zəmanəti kimi Rusiyanın guya Abxaziya və Cənubi Osetiyanı Gürcüstana geri qaytaracağı ümidini “satışa çıxardı”. Amma Rusiya XİN başçısı Lavrovun Gürcüstan rəsmilərinin bu məsələni səhv başa düşüdüyünə dair eyhamı Bidzina İvanaşvilinin “kələyini kəsdi”. İvanaşvili isə yenindən Gürücstanın ərazi bütövlüyünün bərpasından danışdı. O, Batumidə bir daha bəyan etdi ki, Gürcüstanın ərazi bütövlüyünün dinc bərpası hər an yarana bilər.**



## İndi ölkənin iki yolu var: ya Kremlin pəncəsində əsir olmaq, ya da şəffaf seçkilərlə gerçək azadlığa qovuşmaq

Sadəcə, nə hikmətdirsə, Bidzina “Milli Hərəkat”ın guya bu sülh prosesinə müdaxilə edəcəyini ortalığa atıb. “Bunu onların barışıq və sülh elanına isterik reaksiyası sübut edir. Bu təəccüblü deyil, çünki 2008-ci ildə kənardan gələn sifarişlə osetinlərlə və abxazlarla olan zəif inam tellərini kobud şəkildə kəsdilər, xalqlarımızı bir-birindən daha da uzaqlaşdırdılar və mövcud uçurumu dərinləşdirdilər”, - sözləri ilə İvanaşvili Gürücstanın başına gələn bəlaların Rusiyadan yox, Saakaşvili və onun partiyasının qərbmeyliliyindən qaynaqlandığını iddia edib. Bu da onun Rusiyanın dəstəyi ilə yanaşı, vətəndaşların səsini almaqdan ötrü Abxaziya və Cənubi Osetiyanın Gürcüstanın tərkibinə qayıdacağı ümidini alver predmetinə çevirməkdən belə çəkinmədiyini göstərir. İvanişvili əmin olduğunu bildirib ki, “bu boşluğu yalnız qarşılıqlı anlaşma, öz hərəkətlərini dərk etmək və bir-birinə əl uzatmaqla doldurmaq olar”.

Qısası, Gürcüstanda Qərb-Rusiya savaşının nəticəsini görməyə çox az qalıb. Hakim partiyanın Rusiyaya açıq rəğbət bəslədiyi və antidemokratik davranışlardan çəkinmədiyi səbəbindən ölkədə azad və ədalətli rəqabət gözləyənlər azdır. Hərçənd, Gürcüstan Mərkəzi Seçki Komissiyasının rəhbəri Giorgi Kalandarişvili, “Dairə və məntəqə seçki komissiyalarına tövsiyə edirəm ki, hər hansı seçki subyektinin müdafiəsi və ya əleyhinə hərəkət kimi qiymətləndirilə bilən hərəkətlərdən, o cümlədən sosial şəbəkələrdə şəxsi səhifələrdən partiya namizədlərinin siyasi kampaniyaları, təşviqat məqsədilə istifadə etməkdən çəkinsinlər”, - sözləri ilə tərəfləri siyasi neytrallığa çağırıb.

Əlbəttə, Rusiyanın diqtəsinin seçkilərdə hansı “sehrbazlığ”a gətirdiyini Azərbaycanda gördükdən sonar, Kremlin müdaxiləsinin Gürcüstandakı seçkilərdə də necə “bəhrələr verəcəyini” təxmin etmək çox da çətin deyil. Heç də səbəbsiz deyil ki, Tiflisdə siyasi atmosfer məşum dərəcədə gərginləşib və qütbləşib. Bu baxımdan, güman etmək oalr ki, oktyabrın 26-da Gürcüstanda keçiriləcək parlament seçkiləri 1991-ci ildə Sovet İttifaqının küllərindən müstəqil dövlət kimi çıxan qonşu ölkə üçün ən mühüm seçki olacaq.

İlk baxışdan belə görünə bilər ki, Gürcüstanı iki cür gələcək gözləyir: hakim “Gürcü arzusu” partiyası hakimiyyətdə qalarsa, avtoritarizmə sürüklənmək və Rusiya ilə ittifaq. İkincisi, müxalifət hakimiyyətə gələrsə, demokratiya və Avropayönlü yol. Bununla belə, bu qara-ağ şəkil çox sadədir - həqiqət daha mürəkkəbdir.

### Hədəfdə nə var?

2022-ci ilin fevralında Kremlin Ukraynada “xüsusi əməliyyat”a başlaması ilə Gürcüstan bir anda iki cinah arasında döyüş meydanına çevrildi: bir tərəfdən “Gürcü arzusu” ilə onun əleyhdarları arasında, digər tərəfdən isə hökumətin Rusiyalı himayədarları və Qərb müttəfiqləri arasında. Tiflisdə siyasi parçalanmanın dərəcəsi o qədər böyükdür ki, seçki kampaniyası zamanı iqtidar və müxalifət nümayəndələrinin televiziya, radio və ya digər KİV-də bir-biri ilə mübahisə etməsi adi hal alıb. Qarşılıqlı etimadın kölgəsi yoxdur. Müxalifətdə 1918-ci ildən 1921-ci ilə qədər ömrü çox az olan, sonra Sovet İttifaqı tərəfindən mənimsənilən müasir dövrün ilk müstəqil Gürcüstan dövlətinin taleyi ilə bağlı ağrılı xatirələr qalıb.

> 2022-ci ilin fevralında Kremlin Ukraynada “xüsusi əməliyyat”a başlaması ilə Gürcüstan bir anda iki cinah arasında döyüş meydanına çevrildi: bir tərəfdən “Gürcü arzusu” ilə onun əleyhdarları arasında, digər tərəfdən isə hökumətin Rusiyalı himayədarları və Qərb müttəfiqləri arasında. Tiflisdə siyasi parçalanmanın dərəcəsi o qədər böyükdür ki, seçki kampaniyası zamanı iqtidar və müxalifət nümayəndələrinin televiziya, radio və ya digər KİV-də bir-biri ilə mübahisə etməsi adi hal alıb.

Müxalifət indi ehtiyat edir ki, “Gürcü arzusu” hakimiyyəti əlində saxlayarsa, ölkə tamamilə Rusiyanın təsiri altına düşəcək, nəticədə öz qiymətli və kövrək demokratiyasını, vətəndaş azadlıqlarını itirəcək.

Şübhəsiz, bu nəticə Qərbin maraqlarına və nüfuzuna ağrılı zərbə olacaq. ABŞ və onun Avropadakı müttəfiqləri Gürcüstanın müstəqilliyini dəstəkləyirlər. Aİ hətta ona namizəd üzvlük statusu da verdi, baxmayaraq ki, “Gürcü arzusu” hökumətinin demokratiyadan geri çəkilməsi və hökumətin Rusiyanın qucağına girməsi səbəbindən proses dayanıb.

Rusiyanın Gürcüstandakı rolu

Moskva isə öz növbəsində Gürcüstanı postsovet sərhədlərində özünün qanuni təsir dairəsinin bir hissəsi hesab etməkdə davam edir. “Ruslar heç vaxt Gürcüstanı tərk etməyiblər, hətta fikirlərində belə”, - Tiflisdəki qərbli müşahidəçilərdən biri deyir.

2008-ci ildəki avqust müharibəsində Rusiya faktiki olaraq Gürcüstanın iki regionunu - Abxaziya və Cənubi Osetiyanı Tiflisin əlindən aldı və indi orada Rusiyanın 10 minə yaxın əsgər və təhlükəsizlik əməkdaşı-agenti var. Cənubi Osetiya Tiflisdən avtomobillə cəmi bir saatlıq məsafədədir. Hazırda Rusiyanın Gürcüstana hərbi müdaxiləsinin üzdə heç bir əlaməti yoxdur. Bununla belə, sözsüz ki, Tiflisdə qərbyönlü komanda hakimiyyətə gələcəyi təqdirdə Kremlin seçkinin nəticələrini qərəzsiz qəbul edəcəyini düşünmək olmaz. Hərçənd, “Gürüc arzusu”nun ölkənin iplərini əlində aldığı şəraitdə bunu təsəvvür etmək çətindir.

Vaşinqtondakı “Yeni Amerika Təhlükəsizliyi Mərkəzi” üçün yazdıqları məqalədə Nikolas Loker və Andrea Kendall-Taylor belə qeyd edirlər: “Gürcüstan 1991-ci ildə müstəqillik əldə etdikdən sonra bəlkə də ən çox indi rusiyapərəst hökumət özünə tam yer edib və bəzi hallarda “Gürcü arzusu” Moskvanın demokratiyanı sarsıtmaq cəhdlərində Putinin metodları üzrə hərəkət edir. Moskvanın başlıca məqsədi - rusiyayönlü qüvvələrin qalcılığını, sabitliyini təmin etməkdir, xüsusən də partiyanın qurucusu və faktiki lideri Bidzina İvanişvilinin”.

### Demokratiyadakı uğursuzluqlar

Bununla belə, bu seçkiləri despotizmlə azadlıq arasında və ya Rusiya ilə Qərb arasında birbaşa rəqabət kimi qələmə vermək Gürcüstanın son 30 ildəki siyasi trayektoriyasının əsas xüsusiyyətlərini gözdən qaçırmaq deməkdir. “Stokholm Şərqi Avropa Araşdırmaları Mərkəzi” üçün şərhində Markus Qreyş “gülləni quşun gözündən vurur”. O, müstəqillik əldə etdikdən sonra Gürcüstanı təqib edən üç uzunmüddətli problemi müəyyənləşdirib: “Birinci problem dərin siyasi və sosial uçurumdur. İkincisi, bütün Gürcüstan hökumətlərinin gec-tez avtoritarizmə düşməsidir. Üçüncüsü, xalqın paradoksal olaraq həm Aİ-ni, həm

# ni həll edəcək seçki

## Rusiyanın diqtəsi ilə Gürcüstanda da Kremlin "şah əsəri" olan seçki saxtakarlığı oyunu səhnəyə qoyulacaqmı?



Gürcüstanda seçkilərlə bağlı ictimai rəy sorğuları ilə bağlı müstəqil ekspertlərdən birinin fikrincə, "Gürcü arzusu"nun şəxsi sorğusu onun 40%-dən çox səs toplamaq üçün mübarizə aparacağını göstərib. Lakin fakt budur ki, proporsional seçki sistemi ilə "Gürcü arzusu" hətta 37-38 faiz səslə də parlamentdəki yerlərin yarısından bir qədər çoxunu ala bilir. Əgər bir və ya bir neçə müxalifət partiyası beş faizlik baryeri keçməsəydi, hakim partiyaya çox faydalı olardı.

də "Gürcü arzusu"nu eyni zamanda dəstəkləməsidir. Bu, Qərb liderlərini məyus edir və gürcülərin Aİ üzvlüyünün nə ilə nəticələnəcəyini yaxşı başa düşüb-düşməməsinə şübhə yaradır".

1991-ci ildən bəri milli müstəqilliyin müdafiəçiləri və siyasi azadlığın müdafiəçiləri kimi fəaliyyətə başlayan bütün hökumətlər gec-tez korrupsiya və qanunun aliliyindən sui-istifadə ilə çirklənmiş avtokratiyanın dərin qüsurlu formalarına düşdülər. Bu, Gürcüstanın ilk post-kommunist prezidenti Zviad Qamsaxurdiyaya, bir vaxtlar Qərbdə Mixail Qorbaçovun dövründə SSRİ-nin uzaqgörən xarici işlər naziri kimi hörmət edilən Eduard Şevardnadzeyə, indi "dictator" kimi təlqin edilən islahatçı Mixail Saakaşviliyə, son olaraq isə Bidzina İvanişviliyə aiddir.

### Müxalifətin zəif tərəfləri

"Saakaşvili dövrünün irsi Gürcüstanın dörd əsas müxalifət partiyası üçün ciddi problemdir", deyə gürcü politoloq Bidzina Lebanidze izah edir. "Həm "Gürcü arzusu"nun, həm də müxalifətin əhalinin əksəriyyəti ilə əlaqəsi kəsilib və insanlar özlərini siyasi proseslərdən uzaq hiss edirlər", - Lebanidze izah edir. Oxşar arqumentləri "Avropa Siyasət Təhlili Mərkəzi" üçün yazan Beka Çedia da deyir:

"Müxalifətin parçalanma ilə yanaşı, kimlik və özünüdərk problemi də var. Seçicilər üçün kiçik partiyalardan hansının hansı alyansın üzvü olduğunu və seçicilərə nə vəd etdiyini anlaması çətindir", - deyə Çedia yazır.

Çedia, "Tiflisdə bir bitərəf analitik mənə dedi", deyə yazır: "Qarşıdan gələn seçkilərə qərbyönlü və rusiyayönlü qüvvələrin qarşıdurması kimi baxmaq kifayət deyil. Paytaxtdan uzaqda yerləşən əyalətlərdə seçicilər də bunu bir növ Saakaşvili ilə Ivanişvili arasında döyüş hesab edirlər. Başqa sözlə, Gürcüstan siyasətinin avtokratların arenası kimi imici qalmaqdadır", - o, vurğulayıb.

### Azad seçki şansları azdır

Sözsüz ki, Azərbaycana uzanan pəncələri kəsilməyən Rusiyanın diqtəsi ilə ölkəmizdə saxtakarlığın şah əsəri kimi ərsəyə gələn saxta seçkilərin bir versiyası da Gürcüstanda səhnəyə qoyulacaq. Çünki haraya çürük və vəhşi rus nəfəsi dəyirsə, nəticəni əvvəlcədən təxmin etmək olar.

Gürcüstanda seçkilərlə bağlı ictimai rəy sorğuları ilə bağlı müstəqil ekspertlərdən birinin fikrincə, "Gürcü arzusu"nun şəxsi sorğusu onun 40%-dən çox səs toplamaq üçün mübarizə aparacağını göstərib. Lakin fakt budur ki, proporsional seçki sistemi ilə "Gürcü arzusu" hətta 37-38 faiz səslə də parlamentdəki yerlərin yarısından bir qədər çoxunu ala bilir. Əgər bir və ya bir neçə müxalifət partiyası beş faizlik baryeri keçməsəydi, hakim partiyaya çox faydalı olardı. "Gürcü arzusu"nun ölkənin seçki komissiyalarına təsirini, məhkəmə sisteminə nəzarəti, seçicilərin rüşvətxorluğunu və müxalifət fəallarının qorxudulmasını nəzərə alsaq, partiyanın qələbəsini təmin etmək üçün hansı oyunlara gedəcəyini təsəvvür etmək çətin deyil.

Gürcüstanın keçmiş səfiri və milli təhlükəsizlik üzrə mütəxəssis Şota Guineria deyib ki, "Rejim, dəstək müqabilində insanlara əfv, həbsdən vaxtından əvvəl azad edilmə və cərimələrin bağışlanması kimi imtiyazlar təklif etməklə seçicilərə təsir etmək üçün sistemli şəkildə dövlət resurslarından istifadə edib".

Mərkəzi Seçki Komissiyasının və onun regional idarələrinin "öz alətləri" ilə doldurulması, seçici siyahılarının manipulyasiyası və bülletenlərin saxtalaşdırılması Gürcüstanda demokratik proseslərin və seçkilərin bütövlüyünü ciddi şəkildə pozub.

### Mümkün nəticələr

Seçkilərin mümkün nəticələrinin siyahısında yaxşıdan ən dəhşətlisinə qədər bütün spektr var.

Gürcüstanda Polşa ssenarisi ən az ehtimaldır. Bir il əvvəl Varşavada mühafizəkarların və millətçilərin qeyri-liberal hökuməti keçmiş baş nazir Donald Tuskun rəhbərlik etdiyi müxalifətə seçkilərdə məğlub olmuşdu. Bəzi çətinliklərə baxmayaraq, Tusk və müttəfiqləri sülh yolu ilə vəzifələrinə qayıda bildilər. Gürcüstanda belə nəticə çətin görünür. Hakim partiya öz mövqeyindən əl çəkmək fikrində deyil, o dövlət hakimiyyətinin demək olar ki, bütün rıçaqlarını öz əlində cəmləyib və saxtakarlıq üçün bütün imkanlara malikdir. Spektrin əks ucunda Belarus ssenarisi var. 2020-ci ildə Minsk diktatoru Aleksandr Lukaşenkonun açıq-aşkar saxta prezident seçkilərində qalib gəldiyini bəyan etməsindən sonra kütləvi etirazlar başladı. Amma Lukaşenko rejimi nümayişçilərlə uğurla mübarizə apardı və bu gün Belarus da Putinin Rusiyası qədər "buxovlar içində azaddır".

Üçüncü variant - serb ssenarisidir. Prezident Aleksandar Vucic və onun hakim partiyası Serbiyada keçirilən seçkilərdə müntəzəm olaraq qalib gəlir. Serbiya seçkilərini tam azad və ədalətli adlandırmaq olmaz, lakin Qərb hər zaman özünü yalnız Vuçiçi danlamaqla məhdudlaşdırır, çünki əsas məqsədi Serbiya ilə işgüzar münasibətləri saxlamaqda görür.

### Qeyri-sabitlik və ya zorakılıq riski

Əgər "Gürcü arzusu" seçkilərdə vicdansızlıqla qalib gəlsə və ya uduzsa, lakin məğlubiyyətini etiraf etməkdən boyun qaçırsa, hakimiyyətə qarşı küçə etirazları mümkündür. Post-kommunist Gürcüstanın tarixi sürprizlərlə doludur. 2003-cü ildə korrupsiya və saxta seçkilərlə bağlı ictimai qəzəb o vaxtkı prezident Şevardnadzeni devirən nümayişlərə səbəb oldu. Şevardnadze istefa verməklə hadisələrin daha sonra adlandırılacağı kimi "Qızılgül İnqilabı"nın əsasən dinc şəraitdə baş tutmasını təmin etdi. Oktyabrın 26-dan sonra da eyni şey ola bilərmi? Temperament və motivasiya baxımından İvanişvili Şevardnadzedən çox fərqlənir. O, Rusiyada vardövlət qazanan milyarderdir və Kreml onu açıq şəkildə dəstəkləyir. Seçkinin nəticəsi mübahisəli olsa, ABŞ və Avropa 2014-cü ildə Ukrayna Maydan inqilabı zamanı olduğu kimi, vasitəçilik rolunu oynamaq üçün müdaxilə edəcəklər.

Lakin bu hakimiyyət dəyişikliyi Ukraynanın yeni hökuməti və onun qərbli dostlarına baha başa gəldi - Rusiya Krımı ilhaq etdi, Donbassda separatçı üsyanı qızışdırdı və 2022-ci ildə ölkəyə qoşun yeritdi. Gürcüstan üçün bu versiyanın fərqli olacağı gözlənilmir. Amma bir tərəfdən də onsuz Rusiya Abxaziya və Cənubi Osetiyanı çoxdan ilhaq edib, hətta Cənubi Osetiyada Rusiya hərbi bazaları üçün torpaq verilməsi məsələsi gündəmdədir. Bir tərəfədn isə Abxaziya XİN Gürcüstanla danışıqlardan danışıb. Belə ki, oktyabrın 9-da Abxaziyanın XİN-də Transqafqazda təhlükəsizlik və sabitlik üzrə Beynəlxalq Cenevrə Müzakirələrinin həmsədrləri ilə görüş keçirilib. Danışıqlardan sonra Abxaziyanın xarici işlər nazirinin müavini Odissey Biqvava bəyan edib ki, Abxaziya ilə Gürcüstan arasında "güc tətbiq etməmək" haqqında sənədin razılaşdırılması və imzalanması Cenevrədə Transqafqazda təhlükəsizlik və sabitlik müzakirələrində əsas məsələyə çevrilməlidir. Bu məsələ ilə bağlı danışıqların növbəti raundu bu il noyabrın 5-dən 6-dək keçiriləcək. Məgər "güc tətbiq etməmək" haqda sənəd Tiflis ilə Suxumunin bərabərhüquqlu tərəflər səviyyəsinə gətirilməsinin etirafı deyil? Həm də bu müzakirə seçkilərdən sonraya salınıb ki, gürcü seçicilər üçün "yuxudan ayıldıcı şok effekti" rolu oynamasın.

Beləliklə, Gürcüstanın taleyi həll olunur. Qarşıda iki yol var: ya Kremlin pəncələrinin məngənəsində əsirlik, ya da gürcülərin Rusiyadan canını qurtararaq şəffaf seçkilərlə azadlığa qovuşması.

**Ülviyyə ŞÜKÜROVA**

# Veteran olduğu üçün ona iş verilmədiyini İDDİA EDİR - "Bu şirkətlər Prezidentin qərarını saymırlar"

**Daşkəsən rayonu, Quşçu kənd sakini Mürsəlov Babək Mövsüm oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi işsizlikdən əziyyət çəkdiyini, məhz veteran olduğu üçün heç kəsin ona iş vermədiyini iddia edir:**







"Mən, Mürsəlov Babək Mövsüm oğlu, yazaraq sizdən xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Bildirim ki, atam qazidir. Ailədə 3 qardaşıq. Qardaşımın biri və mən hərbi xidmətdə olmuşuq. Ortancıl qardaşım 44 günlük müharibənin veteranıdır.

Qardaşımın biri xəstə olsa da, onu əsgərliyə apardılar. İcra Hakimiyyətinə və bir çox yerlərə şikayət etdikdən sonra adını çəkə bilməyəcəyim bəzi vəzifəli şəxslər bizim evə gəldilər. Qardaşımı əsgərliyə aparılan vaxt dövlətdən xəstəliyə görə pensiya alırdı. Evə gələn məmurlar bizdən şikayəti geri götürməyimizi xahiş etdilər.

Hazırda əsas problemimiz işsizlikdir. Atam da, biz də müharibə iştirakçısıyıq, amma bizə iş vermirlər. Dəfələrlə "Azər Gold" və "Daşkəsən" dəmir filizi şirkətlərinə CV versəm də, mənə iş vermirlər. Zəng vurub səbəbini soruşduqda isə, mənə deyirlər ki, boş iş yeri yoxdur. Onlar dövlət rəhbərinin verdiyi qərarı heçə sayaraq, məni işlə təmin etmirlər. Hətta məni təhdid edərək, "bura zəng vurma" deyirlər.

Onu da qeyd edim ki, həmin idarələrdə yeyinti həddindən artıqdır. "Daşkəsən" dəmir filizi şirkətində işləyən Azər adlı şəxs 17 ton dəmiri satıb yeyib. Onu dərhal işdən çıxardılar. Həmin yerə pul ilə adam götürdülər, məni yenə ora götürmədilər. İşsizlikdən bilmirəm neynəyim. Veteran adı eşidən şirkətlər "iş yoxdur" deyirlər".

**Jalə FAMİLQIZI**

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.***

# "Qaçqınkom" və "JEK" məcburi köçkünün evini ələ keçirib

## Qubadlı rayon sakini Elşad Bəylərov: "Mənə dedilər ki, sistemdə olan ev sənə verilməyəcək, hazırda sənə təklif olunanı dəyərləndir"



**Qubadlı rayon sakini Bəylərov Elşad Məhəmməd oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. E. Bəylərov qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayevə müraciət edir.**

**"Hörmətli Prezident!**

**Cənab Rövşən Razayev!**

Bildirim ki, 1993-cü ildə elimizdən-obamızdan məcburi köçkün düşərək, Bakı şəhəri, Nərimanov rayonu, Əliəşrəf Əlizadə küçəsi 19 ünvanındakı yataqxanada məskunlaşdıq.

2018-2019-cu illərdə yaşadığımız bina plana düşdüyü üçün bizi oradan çıxardılar. Həmin vaxt "Qaçkınkom" rəhbərliyi bizi Xocasəndə evlə təmin edəcəklərini bildirmişdilər. O dönəmdə atam ağır xəstə olduğu və mərkəzdə yerləşən xəstəxanaların birində mütəmadi olaraq müalicə aldığımız üçün bizə təklif olunan evlə maraqlana bilmədik. Sadəcə, atam "Qaçqınkom" rəsmilərinə bildirmişdi ki, məsafə uzaq olduğundan, səhhəti ilə bağlı Xocasəndə yaşaya bilməyəcək. Yəni atamın səhhəti ilə bağlı biz, bir növ, həmin evdən imtina etmiş olduq. Xahiş etdik ki, bizə şəhərə yaxın bir yerdə ev verilsə, daha yaxşı olar. Çünki atama xəstə olduğundan tez-tez təcili yardım çağırmalı olurduq. Səhhəti ilə bağlı onu xəstəxanaya tez çatdırmağa məcbur idik.

Qeyd edim ki, anam vaxtsız rəhmətə gedib, ailəm isə dağılıb. Atam yataq xəstəsi idi, ona mən baxırdım. Artıq 2 ildir ki, atam da rəhmətə gedib.

Onu da bildirim ki, Xocasəndəki evdən imtina etdikdən sonra atam kirayə pulu üçün müraciət etmişdi. Həmin vəsaitin verilib-verilmədiyi haqda dəqiq məlumatım yoxdur. Çünki həmin vaxt mənim də səhhətimdə ciddi problemlər yaranmışdı. Hətta hazırda da psixoloji problemlərim var, 3-4 aydan bir Maştağa ruhi əsəb dispanserində müalicə alıram. Bununla bağlı aidiyyəti qurumlara sənədlərimi də təqdim edə bilərəm. Həmçinin, onların özləri də bu sənədləri dispanserdən əldə edə bilərlər.

Yuxarıda qeyd etdiyim kimi, səhhətimdə problem yaranmazdan əvvəl həm atama baxırdım, həm də Nizami rayonunda işləyirdim. Bu kimi səbəblərə görə bizə təklif olunan evdən imtina etmək məcburiyyətində qaldıq.

**Hörmətli Prezident!**

**Cənab Rövşən Razayev!**

Təxminən 1 ay 20 gün qabaq Mehdiabad qəsəbəsi Mənzil Kommunal İstismar Sahəsinin ("JEK") müdiri Ziyad müəllim mənə zəng vuraraq bildirdi ki, burada sənin adına 2 otaqlı ev var, nə üçün yaşamırsınız? Bu vaxt ona həmin evdən xəbərim olmadığını, 2018-ci ildən bu günə kimi heç bir qurumdan mənə bu haqda məlumat verilmədiyini bildirdim. Ziyad müəllim yenə dedi ki, burda sizin adınıza 2 otaqlı ev var.

Məsələ ilə maraqlanıb, Ziyad müəllimin yanına getdim. O, mənə dedi ki, sən Mehdiabaddakı evdən rəsmi şəkildə imtina et, bu dəqiqə Pirallahı qəsəbəsindən sənə 2 otaqlı evin açarını verim, get yaşa. Etiraf edim ki, həmin vaxt səhhətimdə yaranan problemlə əlaqədar sağlam qərar verə bilməmişəm və Ziyad müəllimin vədinə inanaraq, onun təqdim etdiyi sənədə qol çəkmişəm.

Daha sonra bütün bunları yaxın dostuma danışdım. O, məni başa saldı ki, səhv etmisən. Ziyad müəllimə zəng vurub bildirdim ki, mən ərizəmi geri götürmək istəyirəm(Bütün dediklərimi telefon danışıqları ilə sübut edə bilərəm). Ondan sistemdə göstərilən ünvandakı evi mənə verməsini xahiş etdim. Əlavə etdim ki, hazırda qalacaq yerim yoxdur, bir gün orda, başqa gün burda yaşayıb günümü keçirirəm.

Ziyad müəllim mənə dedi ki, "Qaçqınkom"la əlaqə saxla, onlara "mənə sistemdə olan evi verin, Pirallahıdakı evi istəmirəm", - deyə bildir. Mən "Qaçqınkom"a müraciət etdim. Bir müddət sonra həmin qurumdan mənə məktub gəldi ki, "siz həmin ünvanda yaşamadığınız üçün tərəfimizdən həmin mənzil məhkəməyə veriləcək".

Axı mənə açar verilməyib, heç bu evdən xəbərim də olmayıb. Cəmi 1 ay 20 gün olar ki, adımıza olan evdən xəbər tutmuşam. Hazırda mənim olan, amma səfasını başqaları sürən evin aqibəti necə olacaq, onu bilmirəm. "Qaçqınkom"da olduğum zaman məhkəməyə etiraz etmədiyimi bildirdim. Dedim, məhkəmədə də bildirəcəm ki, ünvanını belə bilmədiyim halda, o evdə necə yaşaya bilərdim?!

Məsələni mediada işıqlandırdıqdan sonra özünü "Qaçqınkom"un mətbuat xidmətinin əməkdaşı olaraq təqdim edən (vəzifəsini dəqiqliklə bilmirəm) Nazilə xanımın qəbulunda olmuşam. Nazilə xanım mənə dedi ki, hadisə necə olub, onu yaz və imza at. Hər şeyi olduğu kimi orada da qeyd etmişəm. Nazilə xanıma Ziyad bəyin dediyini də çatdırdım. Dedim, Ziyad bəy mənə bildirdi ki, get "Qaçqınkom"-dan açarı götür, evində yaşa.

Daha sonra Faiq müəllim adlı şəxslə görüşdük. Faiq müəllim həqiqətən də kömək etmək istəyirdi. O, məni Müşfiq adlı bir əməkdaşa yönləndirdi. Lakin o, mənə dedi ki, sistemdə olan ev sənə verilməyəcək, hazırda sənə təklif olunan evi dəyərləndir.

**Hörmətli Rövşən müəllim!**

Mən Sizdən kömək gözləyirəm. Mən, Azərbaycan Respublikasının vətəndaşı və məcburi köçkün kimi, Sizdən xahiş edirəm ki, bu kimi halların qarşısını alın, bizim haqqımızın tapdalanmasına imkan verməyin".



AZƏRBAYCAN RESPUBLİKASI
QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ
ÜZRƏ DÖVLƏT KOMİTƏSİ
MƏNZİL İSTİSMAR DEPARTAMENTİ

Poçt indeksi: AZ 1122
Bakı şəhəri, Tbilisi prospekti-129

Telefon: (012) 430-81-49
Faks: (012) 530-94-12

№ 3-36-5/2-B-12443-25/2024/723 "09" oktyabr 2024-cü il

Vətəndaş: Bəylərov Elşad Məhəmməd oğluna

Sizin Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə daxil olmuş müraciətinizə Komitənin Mənzil İstismar Departamentində baxılmışdır.

Müraciətinizlə əlaqədar olaraq bidiririk ki, Siz qeyd etdiyiniz ünvanda uzun müddət yaşamadığınız üçün tərəfimizdən həmin mənzil məhkəməyə veriləcək.

Direktor: Səbuhi Əhmədov





**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# "Narkotik cinsi aktivliyi çox ciddi şəkildə aşağı salır"

## Uroloq-androloq Vasif İsmayıl: "Marixuana orqanizmdəki yağların içinə toplanır və orada 6-7 ay qədər təsiredici şəkildə qalır"



"Marixuanaya nisbətən daha ağır narkotik maddələr - amfetamin, heroin kimi - cinsi aktivliyi çox ciddi şəkildə aşağı salır, insanın cinsi hadisəyə marağını azaldırlar. Eyni zamanda da sperma yaranmasına da çox mənfi təsir göstərirlər"

**Dəfələrlə qeyd etmişik ki, narkotik istifadə edən gənclər öz sağlamlıqlarını itirməklə yanaşı, gələcəkdən onların bir çoxunun nəsilartırma qabiliyyəti olmur. Heç də təsadüfi deyil ki, Azərbaycanda uşaqların sayı ilbəil azalır. Hansı ki, bu gedişlə biz də sayı tükənən xalqlar qrupuna aid ola bilərik.**

Ümumiyyətlə, narkotiklərin insan həyatına, sağlamlığına geridönülməz təsirləri şübhəsizdir. "Zəhərli həzz" verən bu bəlanın sonu 3 yol ayrıcına çıxır - ya özündə güc taparaq birdəfəlik narkotikdən imtina etmək, ya iradə zəifliyi halında ömrünün sonunadək sağlam yaşamın keşiyində duraraq özü ilə narkotik arasında sərhəd qoymaq (çünki bəzi mütəxəssislər narkotikdən imtinanın birdəfəlik mümkün olmadığını, iradənin qırılacağını, narkotikin ağuşuna düşmə potensialının hər zaman var olduğunu iddia edirlər), ya da həyata əlvida demək və narkotikə, "zəhərli həzz"in müşayiəti ilə ölümə təslim olmaqdır.

Ötən dəfəki yazımızda qeyd etmişdik ki, narkotikin ömrünün bahar çağında olan gənclərə vurduğu əsas zərbələrdən biri impotensiyadır. Bu amil də birbaşa insan həyatının motivasiyasına təsir göstərir, çünki cinsi yaşam hər bir fərdin həyatında önəmli rol oynayır. Belə demək olarsa, nəsilartırma həyatın əsas məqsədlərindən biri olduğu kimi, bioloji növ olaraq varoluşun təməlidir. Narkotik bəlası iləsə ölkəmizin birbaşa əhali müstəvisində yoxa çıxması deməkdir.

Xatırladaq ki, 2024-cü ilin yanvar-iyun ayları ərzində 48 702 yeni doğulan körpə qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 10,7-dən 9,6-ya düşüb. Bölgələrdə isə ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 10,2-dən 8,3-ə düşüb.

**Uşaqlarının sayının getdikcə azalmasının səbəbləri ilə bağlı uzun illərdir ki, müzakirələr var. Ekspertlər məsələnin iki səbəbini qeyd edirlər:**

***1. Sosial-iqtisadi səbəblər.***
***2.Mənəvi psixoloji səbəblər.***

Sosial-iqtisadi səbəblər kimi çətin iqtisadi durum, əhalinin yoxsulluğu, işsizliyin yüksək səviyyədə olması, gəlirlərin çox aşağı olması, evsizliyin getdikcə artması və s. göstərilir. Mənəvi-psixoloji səbəbin içində isə birbaşa narkotik istifadəsinin payı çoxdur. Sözsüz ki, cəmiyyətdə mənəvi dəyərlər sisteminin çöküdürülməsi, onun yerini bayağı yaşam tərzinin alması narkomaniya üçün münbit şərait yaradır.

Bəs bu demoqrafik faciə nəyin sayəsində baş verir? Narkotikin istifadəçilərə vurduğu sağalmaz yara dolayısı ilə də əhali sayının azalmasında necə iz qoyur? Ümumiyyətlə, xarkotikin sayəsində kəsilən nəslimizi, xalqımızı hansı aqibət gözləyir? Həmçinin, narkotik istifadəsindən qurtulmuş şəxsin bu qabiliyyətinin tam bərpa olunması, bununla yanaşı sağlam, normal uşaq sahibi olması ehtimalı nə qədərdir? Keçmiş narkotik istifadəçisindən törənən nəslin genetik olaraq "narkotikə isti münasibət", yaxud "narkotikə doğmalıq, yaxınlıq" sindromu daşıma ehtimalı nə qədərdir?

Bu və digər suallara tibb üzrə fəlsəfə doktoru, uroloq-androloq Vasif İsmayılla söhbətimizdə cavab tapmağa çalışdıq. O, hesab edir ki, ilk öncə narkotik maddələri bir-birindən ayırmaq lazımdır: "Bəzi narkotik maddələr müəyyən dozalarda cinsi aktivliyin artmasına gətirib çıxarır. Bəzi narkotik maddələr isə, əksinə, cinsi aktivliyi azaldırlar. Məsələn, marixuana cinsi aktivliyi kiçik dozada artırır. Amma sperma keyfiyyətini çox ciddi şəkildə korlayır. Belə ki, şəxs övlad sahibi olmaqda problem yaşayır. Onu nəzərə alaq ki, marixuana insan orqanizmində aylarla qalır. Çünki marixuana orqanizmdəki yağların içinə toplanır və o yağların içində 6-7 ay qədər təsiredici şəkildə qalır. Marixuanaya nisbətən daha ağır narkotik maddələr - amfetamin, heroin kimi - cinsi aktivliyi çox ciddi şəkildə aşağı salır, insanın cinsi hadisəyə marağını azaldırlar. Eyni zamanda da sperma yaranmasına da çox mənfi təsir göstərirlər".

Göründüyü kimi, insan həyatının əsas motivasiya qaynağından biri olan impotensiya narkotikin birbaşa məhsuludur. V.İsmayılın sözlərinə görə, "seksual marağın azalması o deməkdir ki, narkotik istifadəçisinin seksual motivasiyası olmur. Şəxs kiminləsə cinsi əlaqəyə girmək istəmir. Əslində artıq təbabətdə impotensiya sözü istifadə olunmur. Narkotik cinsi istəksizlik yaradır, libidonu ortadan qaldırır".

Digər tərəfdən, narkotik istifadəsi həm qadınlarda, həm də kişilərdə sonsuzluğun formalaşması, patologiyası olan uşaqların doğulması, ürək-damar sistemi, mədə-bağırsaq traktının xəstəliklərinə səbəbiyyət verir. Bunu rusiyalı həkimlər bildirir. Necə deyərlər, orqanizmin bütün sistemləri narkotik istifadəsindən əziyyət çəkir.

Odur ki, narkotikə meyl edən istər yeniyetmə və gənclərimiz, istər də orta nəslin nümayəndələri yuxarıda sadalanan faktları nəzərdən qaçırmamalıdırlar...

**Hazırladı: İ.SABİRQIZI**





**Emil MAQALOV**

***Regional Sosial Təşəbbüslərə Dəstək İctimai Birliyinin sədri, narkoekspert***

# Cinayət törədən yeniyetmələrin sayı günbəgün niyə artır?

**Məktəblilər, yeniyetmələr arasında bıçaqlanma halları artır. Son iki gündə artıq üç belə hadisə qeydə alınıb. Sözügedən cinayət hadisələri Bakı və Xaçmazda baş verib.**

Maraqlıdır ki, bu cinayətlərdən ikisini törədənlərin cəmi 16 yaşı var. Belə ki, Sabunçu rayonu, Ramana qəsəbəsində 16 yaşlı şəxs 20 yaşlı gənci bıçaqla qətlə yetirib. Xaçmazda isə 10-cu sinif şagirdi öz sinif yoldaşını bıçaqlayıb.

Həmçinin, Sabunçu rayonunda yerləşən 71 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi 2008-ci il təvəllüdlü A.S (şərtidir) D.N-ı (şərtdir) bud nahiyəsindən bıçaqlayıb. Yaralının həyatını xilas etmək mümkün olmayıb.

Niyə bu hallar baş verir? Səbəblərdən birini qeyd edirəm.

"Vorovskoy yaşayış"; AUE - (Arestantkiy Uklad Edin)

"Məhkumun həyat tərzi birdir": kriminal subkulturanın adı, şüarı və azyaşlılardan ibarət Rusiya qeyri-rəsmi dəstələr birliyi.

Bu "gənclik icması" mənaca rus mütəşəkkil cinayətkarlığının cinayət ideologiyası ("oğru anlayışları") ilə eyni olan, lakin onlardan kopyalanmayan dəyər və davranış normaları sistemini təbliğ edir.

Rusiyada qadağan edilmiş, özlərini AUE-nin üzvü hesab edən cinayətkar birliklərin üzvləri adətən təhsil müəssisələrində öz qaydalarını müəyyən edirlər. Hədə-qorxu ilə uşaqlardan oğurladan ümumi fonduna ("obşaq") pul yığırlar, pulu verməkdən imtina edənləri isə "çıxır", onlar bu cür şəxslər üçün ayrıca ("sxodka") masalar qurur, qab-qacaq və paltarlarını xüsusi olaraq işarələyir, müxtəlif hədə-qorxu üsullarından, o cümlədən döyülmə və cinsi cinayətlərdən istifadə edirlər.

Bəzi hallarda, yerli yeniyetmələr böyüklərdən ibarət cinayətkar qruplardan gizli kuratorlar təyin edilir.

AUE üzvləri sosial şəbəkələrdə yüz minlərlə insanın abunə olduğu "icmalar" yaradır və gördüyünüz kimi, məsələn "Tik-Tok"da da ən çox diqqət onlardadır.

AUE dəstələrinin əsas "mülkiyyəti" üzvlərinin azyaşlı olmasıdır. Bu, onlara, onların öz aləmində cəzasızlıq və toxunulmazlıq hissi verir. Üstəlik, yaşa görə bu yurisdiksiyanın olmaması polis tərəfindən saxlandıqda, məhkəmədə, xüsusən də böyüklər onları döyürlərsə, hətta özünümüdafiə zamanı onlar tərəfindən qorxutma vasitəsi və müdafiə kimi də istifadə olunur.

"AUE Məcəlləsi" polis və digər dövlət orqanları ilə hər hansı qarşılıqlı əlaqə və yardımı qadağan edir. Hər hansı bir fəaliyyət sahəsində AUE dəstəsi ilk növbədə uşaqları işə götürməyə və onlardan "vergi" toplamağa, yetkin cinayət strukturlarının konsepsiyalarına əsaslanaraq paralel güc və nizam strukturu qurmağa çalışır.

Belə bir "vergi", "ümumi fond", ("obşaq") üçün ödənişlər ideyası hansısa formada sosial sığorta sistemini, pensiya sistemini istehzalı surətdə köçürür: Uşaqlardan yığılan pullar indi həbsdə olanlara, sonra isə gələcəkdə pul bağışlayan AUE üzvləri həbsxanada olarkən başqalarından (gənc AUE tərəfdarları) pul alacaqlar. Yəni AUE üzvləri nə vaxtsa həbsxanaya düşəcəklərinə inanır və uşaq olduqlarından buna can atırlar.

"Tik-Tok"da iştirakçıların ümumi sayı təxminən 300 min olan bir neçə "icma" yaradılmışdır. Bu icmalardakı mesajların mövzusu oğruların romantikası ilə sərxoşluq, cinayətkar həyat tərzinin təbliği və romantikləşdirilməsi, oğruların anlayışları və kriminal dünyagörüşüdür.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# Azərbaycanda boşanma halları niyə sürətlə artır?

## Və yaxud hakimlərin yanlış qərarı boşanmaların artmasına nə kimi təsir göstərir?



**Vəkil Zibeydə Sadıqova: "Əgər ana yenidən ailə qurur və uşağa qohumlar baxırsa, bu halda qarşı tərəf məhkəməyə müraciət edə bilər"**

Azərbaycanda boşanan qadına "tənha", hətta bəzi insanlar tərəfindən "yazıq" insan kimi baxılır. Bu "status" qadınlara məişətdə heç bir üstünlük verməsə də, bir qədər azadlıq və sərbəstlik verir. Məhz bu səbəbdən də bəzi ekspertlər və psixoloqlar bildirirlər ki, kişilərdən çox qadınlar boşanmaya maraqlı olurlar. Yəni qadınlar həll ediləsi problemi belə, bəzən o qədər qəlizləşdirirlər ki, "çıxış yolu"nu ancaq boşanmada görürlər.

Qadınların çoxu, hətta 80 faizi boşanmanı adi hal kimi qiymətləndirir. Halbuki, ailə müqəddəsdir, onu qorumaq və ona sadiq qalmaq lazımdır. Keçmişə nəzər salsaq aydın olar ki, ailəsini, evini dağıtmaq istəməyən qadınlar üstünlük təşkil edirdi. Keçmişdə ən ciddi məsələlərdə belə, ağsaqqalların sözü keçərli olurdu, istər kişi, istər də qadın onların məsləhətinə qulaq asardı. İndi isə tam əksinədir. Hazırda elə bir zəmanəyə gəlib çıxmışıq ki, qarşısına boşanmağı məqsəd qoyan insanlar heç bir məsləhətə qulaq asmırlar.

Əksinə, statistika göstərir ki, boşanan hər üç qadından ikisi öz anasının təsiri ilə həyat yoldaşından ayrılır. Yəni qadının boşanma qərarının qətiləşməsində analar "yardımçı" olur.

Qadın ailə qurur, ailə uğursuz olur, boşanır. Uşaq varsa ailiment kəsilir, yoxdursa dərhal "cehizin oğurlanması" ilə bağlı məlumat ortaya çıxır. Hər iki halda da kişilər çətin vəziyyətdə qoyulur.

Əlbəttə, elə qadınlar da var ki, keçmiş həyat yoldaşının mal-dövlətində gözü olmur. Günümüzdə keçmiş ərindən aliment tələb etmədən yaşayan xanımlar az deyil. Amma bu, o demək deyil ki, boşanan qadınlar aliment tələb etməməlidir. Xeyr, övlad hər iki insanındırsa, ikisi də onun böyüyüb boya-başa çatması üçün əziyyət çəkməlidir.

Amma qarşı tərəfin maddi vəziyyəti zəif olduğu halda ən yüksək aliment kəsdirmək, hətta bəzi hallarda uşağı ona göstərməmək və s. yaşadığı çətinliklərdən, düşdüyü vəziyyətdən asılı olmayaraq heç bir qadına yaraşmaz. Qadın öz mənliyini qoruduğu zaman xanım adına daha çox layiq görülür.

Çox təəssüf ki, son vaxtlar boşanma zamanı aliment tələbi bir növ qisas məsələsinə çevrilib. Məsələn, gənclər ailə quran zaman daimi ailə, gələcək xoşbəxtlik, ölənədək bir yastığa baş qoymaq haqqında fikirləşmirlər. Düşünürlər ki, ayrılsam da aliment alacam, lazım gəlsə "gününü göy əskiyə bükəcəm".

Ən dəhşətlisi isə odur ki, hazırda məhkəmələrdə olan işlərin böyük əksəriyyəti məhz boşanma ilə bağlıdır. Şübhəsiz, bu işlər zamanı da birmənalı olaraq qadına haqq verilir. Yəni hakimlərimiz "övlad 18 yaşınadək ananın yanında qalmalıdır" prinsipini önə çəkib, istisna halları nəzərə almadan, kişini "alimentlə" yükləyir. Bu olduqca acınacaqlıdır. Üstəlik, bu sahədə durum getdikcə daha da ağırlaşır. Hər halda, məhkəmələr bu amili nəzərə almalıdır.

Yeri gəlmişkən bir faktı da diqqətə çatdıraq ki, bəzi hallarda boşanan qadın heç bir il çəkmədən yeni ailə qurur və bu zaman "subay oğlana getmişəm, uşaq istəmir", - deyərək övladını valideynlərinin himayəsinə verir. Halbuki, belə hallarda uşaq ataya verilsə, daha məqbul olar. Çünki uşağın atası onun gələcəyi, təhsili ilə bağlı nənə-babadan daha ciddi düşünəcək. Əlbəttə, istisnalar hər zaman var. Amma ümumi şəkildə belə deyə bilərik ki, heç bir halda nənə-baba uşağın gələcəyi üçün onun valideynindən daha artıq düşünə bilməz...

Digər tərəfdən, qeyri-sağlam həyat tərzi sürən qadınlar da var ki, məhkəmə bu faktı hər zaman gözardı edir. Halbuki, azyaşlı bir qız uşağını əxlaq problemi yaşayan ananın yanında hansı gələcək gözlədiyi da bəzi qadınların vəziyyətdən sui-istifadə etməsinə gətirib çıxarır. Təsadüfi deyil ki, hazırda cəmiyyətdə boşanmaların, nəticə etibarilə qeyri-əxlaqi həyat tərzi keçirən qadınların sayı artır.

Haşiyə çıxaq ki, əksər Avropa ölkələrində qanunlar daha mükəmməl olduğundan, boşanma faktları bizdən dəfələrlə aşağıdır. Hətta Kuba təcrübəsinə istinad edərək bildirək ki, orada rəsmi nikaha ehtiyac görülmədiyindən, boşanma halları yox səviyyəsindədir.

Bizim ölkədə isə vəziyyət hər kəsə bəllidir. Belə olduğu halda, cinsiyyətindən asılı olmayaraq, uşaqların birmənalı olaraq anaya verilməsi anlaşılan deyil.

Onu da təəssüflə qeyd edək ki, bu gün sadəcə aliment üçün ailə həyatı qurub, sonradan ayrılmağı hədəfləyən qadınlar da az deyil. Yəni aliment bəzi qadınlar tərəfindən bir növ qazanc mənbəyinə çevrilib. Məsələn, əgər bir kişinin aylıq gəliri 10 min manatdırsa, onun övladın aliment 235 manat kəsilmir, bu zaman qadın böyük vəsait əldə etməyə nail olur.

Məhz bu səbəbdən də anlaşılan odur ki, aliment nə qədər yuxarı məbləğə hesablansa, boşanmalar da bir o qədər çox olacaq. Təəssüf ki, ölkədə boşanmaların sayını azaltmaq üçün heç bir ciddi addım atılmır. Bu gedişlə Azərbaycanda normal, boşanmayan ailələr "tarixə düşəcək".



Məsələ ilə bağlı "Hürriyyət"ə danışan vəkil Zibeydə Sadıqova qeyd etdi ki, əgər boşanan ana yenidən ailə qurur və uşağa qohumlar baxırsa, bu halda qarşı tərəf - ata məhkəməyə müraciət edə bilər: "Boşanma hallarında belədir ki, uşaq anada və yaxud da atada qalırsa, qarşı tərəf aliment ödəyir. Bu aliment uşağın 18 yaşına qədər müəyyən olunur. Ana və yaxud da ata uşağı saxlamaq üçün qarşı tərəfdən aliment alır. Bu məsələ uşağın ata ilə ünsiyyətinə və yaxud da ananın yenidən ailə qurmasına və yaxudda atanın yenidən ailə həyatı qurmasına aid deyil. Əgər ana yenidən ailə qurur və uşağa qohumlar baxırsa, bu halda qarşı tərəf məhkəməyə müraciət edə bilər. Bildirə bilər ki, ana ailə həyatı qurub, uşağa şəxsən özü yox, qohumları baxır, hazırda isə mənim uşağa baxmağa imkanım var, iş vaxtım münasibdir. Əlbəttə, məhkəmə bunu nəzərə alır, qiymətləndirir və lazım gəldikdə uşağı qarşı tərəfə verə bilir.

Amma belə də olur ki, hər iki tərəf işlədiyinə görə uşaqlar dayədə də qala bilir. Bu o demək deyil ki, ana ailə qurubsa uşaq anadan alınmalıdır. Uşağın anadan alınıb, qarşı tərəfə verilməsi üçün əsaslar olmalıdır və bu əsaslar məhkəmənin qətnaməsi üçün keçərli olmalıdır. Ata və ananın ünsiyyətlə bağlı problemləri varsa, məsələn uşaqla ünsiyyət qurmağa imkan verilmirsə, bunun aliment məsələsinə aidiyyatı yoxdur. Qarşı tərəf mediasiyaya, daha sonra isə məhkəməyə müraciət edərək, ünsiyyət hüququnu təmin edə bilir. Yəni hər iki tərəfin ünsiyyət etmək hüquqları vardır. Əlbəttə, məhkəmə də bu hüququ tanıyacaqdır. Xüsusi hallarda məhdudiyyət qoyula bilər, məsələn, atanın və yaxud da ananın təhlükəli şəxsiyyəti olarsa. Əks halda ünsiyyət məsələsində problem olmur, məhkəmə ünsiyyəti təmin edir".

**Jalə FAMİLQIZI**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur

Qərbi Azərbaycanda “kartoqraf-xəritəşünas” kimi peyda olan Ruben Qalçyan adlı hay, dinsiz hay kilsəsinin təşəbbüsü ilə son illər qondarma adlarla saxtalaşdırılmış “xəritə”lər və tarixi-coğrafi faktları təhrif edən kitablar hazırlayaraq beynəlxalaq miqyasda müxtəlif dillərdə yaymaqdadır. Təəccüblüsü odur ki, eyni uydurmalar dövri olaraq hay sürüsü tərəfindən “yeni nəşrlər” adı ilə təbliğ edilir.

# Uydurma “Böyük Ermənistan” saxta xəritələrdə...




Belə ki, 2024-cü ilin I yarısında R.Qalcyan “yeni” bir kitab nəşr etdirib - “2014-cü il. Azərbaycanın Milli atlasında “tarixi” xəritələr və uydurma “Qərbi Azərbaycan” termini barədə” adı altında. Və bu kitabın müzakirəsi iyul ayının əvvəllərində Ermənistan Milli Elmlər Akademiyasında elmi ictimaiyyət tərəfindən müzakirə edilib, avqust ayının 14-dən etibarən isə Milli Tarix Muzeyində qədim dövrlərə və orta əsrlərə aid saxtalaşdırılmış xəritələrin sərgisi təşkil olunmuşdur.

Haşiyə. Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2013-cü il tarixli 147 nömrəli Sərəncamı ilə “Azərbaycan Respublikasının Milli Atlası”nın nəşri haqqında” 20 aprel 2011-ci il tarixli 1436 nömrəli Sərəncamında dəyişikliklər edilməklə, Dövlət Torpaq və Xəritəçəkmə Komiəsinin Bakı Kartoqrafiya Fabrikində çar edilmiş tarixi-coğrafi, milli, mənəvi və elmi sərvətimiz olan bu Milli Atlas 111 səhifədən ibarətdir.

Bütöv Azərbaycanın dövlətçiliyi tarixini mərhələlərlə və əski-qədim xəritələrin timsalında, Orta əsrlər və çar Rusiyası dövrünün kartoqrafik materiallarını, tarixi-coğrafi sərhədlər hüdudunda təbii-landşaft və relyef, torpaq, iqlim, ekoloji sistem və biomüxtəlifliyin növ tərkibinin, ictimai-etnodemoqrafik struktur bölmələrinin, iqtisadi, etnomilli... dəyərlərin miqyaslı təsvirini kompleks şəklində, yüksək poliqrafik tərzdə toplu halında əks etdirən (və bu sahədə/formatda ilk olaraq elmi ictimaiyyətə təqdim edilən) Azərbaycan Respublikasının Milli Atlasına ibtidai insan-hay sürüsü tərəfindən iftira atılması təbii haldır.

Zəngin tarixi-coğrafi, ictimai-siyasi, etnomilli-etnoqrafik... dəyərlərə malik Xalqımızın keçmişinə işıq salan bu qiymətli mənbəyə qarşı hay kilsəsinin xəstə təxəyyülünün məhsulları uydurma və qondarma nüminələrlə geniş, dünya miqyasında (əsasən rus, ingilis və ərəb dillərində) təbliğ edilir.

Dinsiz hay kilsəsinin əsas məqsədi bu sahədə tarxi-coğrafi məzmun və elmi-nəzəri baxımdan saxta, uydurma çap məmulatlarına əsasən Bütöv Azərbaycan hüdudlarının/sərhədlərinin təhrif edilməsi, ilk növbədə Qərbi Azərbaycan bölgəsində əski Türkdilli qəbilə-tayfa İttifaqının kökənli ərazilərinin təhrif edilməsinə yönəlib ki, bu istiqamətdə R.Qalçyanını Qərbi Avropa ölkələrinin arxivlərində, Dövlət və Tarix Muzeylərində, dini mərkəzlərində/kitabxanalarında, şəxsi arxivlərdə... saxlanılan tarixi məlumatların və xəritələrin saxtalaşdırılaraq uydurma ad altında (o cümlədən, “Böyük Ermənistan tarixi xəritələrdə”) verməsindən ibarətdir.

Qədim Babil, Assur və Urartu dövlətləri ərazisində arxeoloji qazıntıalr nəticəsində tapılmış gil lövhələr üzərində mistik məzmunlu işarələri, astronomik işarələri, rəqəmləri, qədim yunan coğrafiyaşünaslarının (Herodot. Strabon, Ptolomey...) ümumi təsvir etdikləri Dünya xəritələrinin kalloqrafik-miniatür şərti işarələrini xəstə hay təxəyyüllərinə uyğun yozmalarını, Qərbi Avropada dini mərkəzlərin kitabxanalarında saxlanılan İlahi-Mistik məzmunlu təsvirlərini....”xəritəyə” köçürən R. Qalçyan “məşhur kartoqraf-xəritəşünas” kimi tərənnüm edilir. Adı çəkilən müzakirədə də Akademiyanın Tarix İnstitutunun direktoru, akademik A.A.Melkonyan (1961) bildirmişdir ki, Azərbaycan-Alban etnogentik və etnomilli-mədəni/-tarixi assimlyativ təşəkkül nəzəriyyəsinə, qədim Azərbaycan tarixinə qarşı mübarizə keçən əsrin 50-60-cı illərindən başlayaraq güclü müqvimətlə, xüsusilə Sovet İttifaqı Qəhrəmanı, akademik Z.M.Bünyadovun (1923-1997) yenilməz “elmi-nəzəri cəbhəsi” ilə qarşılanırdı. İndi artıq R.Qalçyanın timsalında “erməni” tarixi-coğrafi elmi xeyli dərəcədə güclənməkdədir, çünki, o, bir elmi-tədqiqat institutunun işini görə bilmişdir.

> Qədim Babil, Assur və Urartu dövlətləri ərazisində arxeoloji qazıntıalr nəticəsində tapılmış gil lövhələr üzərində mistik məzmunlu işarələri, astronomik işarələri, rəqəmləri, qədim yunan coğrafiyaşünaslarının (Herodot. Strabon, Ptolomey...) ümumi təsvir etdikləri Dünya xəritələrinin kalloqrafik-miniatür şərti işarələrini xəstə hay təxəyyüllərinə uyğun yozmalarını, Qərbi Avropada dini mərkəzlərin kitabxanalarında saxlanılan İlahi-Mistik məzmunlu təsvirlərini....”xəritəyə” köçürən R. Qalçyan “məşhur kartoqraf-xəritəşünas” kimi tərənnüm edilir...

Haşiyə. Qədim Azərbaycanın paytaxtı Təbriz şəhərində 1938-ci ildə doğulan Ruben Aramoviç Qalçyan 1963-cü ildə ali təhsilini (“elektrotexnika” ixtisası üzrə) Böyük Britaniyada, Birmingen şəhərindəki Aston Universitetində başa vurub. Əvvəlcə İranda neft-qaz yataqlarının elektrik sistemlərinin layihələndirilməsində mühəndis kimi işləyib, sonra (1981-2000-ci illərdə) Böyük Britaniyada neft-qaz və neft-kimya sənayesi sahələrində məsləhətçi olub, həm də köçüb orada yaşayıb. 1976-cı ildən qədim, əski xəritələrin kolleksiyasını toplayıb, onları 2013-cü ildə İrəvan şəhərindəki Matenadaran Əlyazmalar Fonduna təhvil verib...

Təsadüfi deyil ki, R.Qalçyanın yuxarıda adı çəkilən kitabının hay mənşəli elmi dairələrin nümayəndələri tərəfindən müzakirəsində, 2023-cü ilin iyul ayında respublika Milli Elmlər Akademiyasının nəzdində Bütöv Azərbaycan dövlətçiliyinə və tarixçünaslığına qarşı davamlı mübarizə məqsədi ilə yaradılmış elmi-nəzəri “Geqard” (“Kilsə boyunbağısı”) Fondunun rəhbəri R.P. Qazaryan (1976, EA-nın Şərqşünaslıq İnstitutunun eksdirektoru) bildirmişdir ki, bizim üçün bu çox “vacib” kitabdır, qeyd edilən faktlar, məsələlər barədə dövri olaraq güclü təbliğat işləri apamaq lazımdır, bu kitabın “məqsədli ünvanlara” çatdırılması müasir dövrdə çox vacibdir”.

Tarixi-arxiv mənbələri və yüksək ixtisaslı milli kadrların ağır zəhməti hesabına işlənib hazırlanan, eləcə də xarici ölkələrin sahəvi elmi dairələri tərəfindən yüksək qiymətləndirilən Azərbaycan Respublikasının Milli Atlasına qarşı qəvi “erməni” xisləti ilə qarayaxma aparan hay toplumu yalnız saxta, dini-mistik təsvirlərin məzmununa kobud müdaxilə yolunu, qeyri-elmi mənbələrə istinadı üstün tutmaqdadır. Axı, necə ola bilər ki, Xristianlığa məxsus Müqəddəs, Səmavi Kitabların (“Bibliya”, “İncil”...) heç birində adı çəkilməyən, bu topluma adi bir Mistik işarə, İlahi deyim və yaxud, Peyğəmbər hədisi olmadığı halda, bu dinə məxsus dini mövzulu miniatür rəsmlərdə, mistik təsvirlərdə “Ermənistan torpağı” haqqında hansı kod işarəsi ola bilər? “Erməni” yalanı ola bilər, daha bu dərəcədə də yox da...

Qeyd etmək lazımdır ki, Bütöv Azərbaycan tarixçiliyinə qarşı davamlı olaraq saxta faktlarla iftiralarının, bütün təbliğat vasitələrindən istifadə etməklə qondarma “Böyük Ermənistan” xəstə təxəyyülünün yayılmasını XXI əsrdə məqsəd/informasiya siyasəti/ideoloji cəbhə...hesab etməklə, bütün ermənişünasları və ictimaiyyət nümayəndələrini ətrafında birləşdirən siyasi-elmi müstəvi kimi 2023-cü ilin II yarısında yaradılan “Geqard” (Himayəçilər Şurasının sədri Milli Elmlər Akademiyasının prezidenti, akademik A.S.Saqyan (1957) ixtisasca kimyaçıdır) Fondu, həm də Xalqımızın milli-mənəvi və tarixi-maddi irsinə qarşı “səlib yürüşü”nün önündə gedən bir qurumdur (bu ilin iyun ayının 20-də bu qurum “Şirvan tarixinin problemləri” mövzusunda növbəti seminar keçirmişdir).

***P.S. Yalançı “kartoqraf” R.Qalçyanın uydurma, saxta məlumatları əsasında çap etdirdiyi “elmi əsərlər” barədə bu sətirlərin müəllifi tərəfindən “Olaylar” qəzetinin 2019-cu il tarixli aprel-iyun aylarında çıxan nəşrlərində təkzib məqalələri (“Qədim dünya xəritələrinin ermənilər naminə saxtalaşdırılması”, “Saxta hay xəritəşünaslığı”, “Ərəb coğrafiyaşünaslarının xəritələrində uydurma erməni toponimləri”, “Haydaşnak uydurmalarının dünya xəritələrində təsviri”, “erməni qardaşlığı” Cəmiyyətinin uydurma “Ermənistan dünya kartoqrafiyasında”kı rolu”...) çap edilmişdir.***

**Qismət Yunusoğlu,**
**Bakı Dövlət Universitetinin müəllimi**

# Yusif Həsənbəyin yaradıcılığı barədə...

**Şair və dramaturq, nasir Yusif Həsənbəy ədəbiyyatımızda şəxsiyyət kimi yaradıcılıq mövqeyini saxlamış, daima cəmiyyətin sosial proseslərində olmuşdur. Mən bu fikrimi sözgəlişi ifadə etmədim: ötən əsrin 60-cı illərindən onun yaradıcı-lığına bələdəm, ədəbi proseslərdə öz sözünü deməkdən çəkinməyən, haqsız mübahisələrə qarşı dözümsüz şəxsiyyət kimi tanımışam. Təbii ki, illər öz işini görür, yaşın üstünə yaş gəlir, lakin təsirsiz ötmür, bir şərtlə, xüsusilə, içində xalq, Vətən məhəbbəti, öləziməyən sevgi olana “dəyib - dolaşmır”, gəncliyində necə yazıbsa “kökdən” düşmür. Bunun ən bariz nümunəsini cəsarətlə deyərdim ki, Yusif Həsən-bəydə görmək caizdir.**





**Allahverdi Eminov**

Şairdə poetik “libido” varlığında sönməyən, yaşayan sevgi fenomenindədir, necə ki, iki il öncə Yusif Həsənbəyin “Qayıda bilmərəm, gözləmə məni” şeiri, deyərdim oxucular arasında “bomba” kimi partladı və onun qəlpələri cavanların qəlbini isindirdi, yaşa dolmuşların qəmli, çoxçox uzaqlarda qalmış xa-tirələrini oyatdı. Bax, şeirin aksslemativliyi və effektivliyi bu məqamlarda özünü göstərir, axı, poeziyada da fizikanın “qravitasiya” - cazibə qüvvəsi mövcuddur! Şeir nə gizlədim, məni elə tutdu ki, təəssüratımı cilovlamadım, geniş məqalə ilə çıxış etdim və bir neçə qəzet həmin yazımı səhifələrində çıxartdı. Bu faktı ona görə xatırladıram ki, şair Yusif Həsənbəy poeziyaya hansı templə gəlmişsə, o ruhda da yazır. Son poemalarından biri “Siziflərin qiyamı”nı qələmə aldı, akademik Nizami Cəfərov və bu sətirlərin müəllifi yüksək fikir söylədilər.

Yaradıcılıq, xüsusilə, poeziya barədə proqnoz vermək çətin məsələdir, çünki bu fenomen əslində yazardan da asılı olmur, ilahidən kodlaşmış bir möcüzədir: baş tutmaya da bilir. Əlbəttə, şair, yazıçı, alim doğulanlar üçün bu qapı açıqdır.

Yusif Həsənbəy həm də püxtələşmiş yazıçıdır, povest və roman yazır, bu şairin nəsr təfəkkürünün epik zənginliyini sübut edir. Məsələn, “Əbdül dayı” po-vestindəki hadisələr bizdən çox aralanmasa da, mürəkkəb qısa dövrə təsadüf edir, uydurulmuş hadisələrdən və əyləndirici situasiyalardan uzaqdır, eyni zamanda çoxobrazlıdır.

Povest dinamik süjet üzərində cərəyan edir, hadisələrin vəhdəti pozulmur, müəllif təhkiyəsi Əbdül dayının və sahibkar Məhərrəmin xarakterini gizlətmir, həyat epizodları birbaşa montaj edilmir, Məhərrəm Qarxun - Qaraxanlı yolunu “İA2” maşını ilə gedərkən Əbdül dayıya - bibisinin ərinə rast gəlir və yol yoldaşı olurlar. Gənc və orta yaşlı həddinə çatmış Əbdül dayını yazıçı belə təqdim edir sualı özünə verməklə: “Bəlkə samballı bir təşkilatın rəhbəri, ya varlı - karlı kişi, sözü daşdan keçən nüfuz sahibidir? Xeyr. Nə eləsindən, nə beləsindən! Qohumdu? Amma nə olsun ki? Əbdül dayı qohum yox, lap Allahın bacısı oğlu olsa belə qabağından yeməyən Məhərrəm onun başına dolanmayacaq! Həqiqətən, Əbdül dayı çoxuşaqlı ailənin başçısı, əlinin qabarı ilə dolanan kişidir. Məhərrəm isə başqa bir qütbdə dayanan gənc, bibisi qızını (Əbdül kişinin qızı Nurcahanı) sevən “əlləm-qəlləm”, pul qazanmaq arzusunda olandır. Əbdül dayının belə bir əqidəsi vardır: “Yaradanın yaratdığını yaşatmaq borcumuzdur” və bir addım da bu fikrindən geri çəkilmir.

Mən bir oxucu kimi soruşuram özümdən: “Rayon kəndlərində baş verən korrupsiya, rüşvətxorluq, haqsızlıq haradan qaynaqlanır?” Demək başsızlıq, hərbə zorbalıq, vəzifədən sui-istifadə və s. beləmi davam edəcəkdir? Müəllif hələlik sua-la cavab vermir, səbəbini axtarır. Belə neqativ halların ümumiləşmiş tipi Se-yidlər kəndidir, vəzifə qamarlayan sovxoz direktoru Alsoltan, Qaraxanlı Dövlət Bankının direktoru Bədəlov (əsərdə onlar görünmürlər), rayon prokurorun köməkçisidir. Deməli, ictimai mühit ləkələnmişdir.

İlk epizodlarda Məhərrəmin stabil xarakteri görünmür, hətta yüngül xasiyyətli təsiri bağışlayır, hər şeyə qarışır, özündən deyir və s. Lakin “atardamarı” da var və gileylənir, əslində tənqid edir, deyir: “... Əlim hər yerə çatırdı. Ancaq rayo-nun xaxollarını doydura bilmədim. Prokuror cinayət məcəlləsini qoydu qabağıma, milis rəisi pistolet göstərdi. Bir tütünçülük Sovxozu yaratmışdım. Onu dondur-dum...” Adama elə gəlir Bakıdan aralı, uzaq kənd - bölgə mühitində müstəqilliyi-miz yoxdur, lap feodal - patriarxal mənzərəni xatırladır: kasıb da, varlı da qazan-maq, şəxsi rahatlığını düşünürlər, hətta feodal dövrünün maarifçiliyi görünmür. Bu adamlar öz şəxsi mənafeləri naminə sərbəstdirlər, sosial - əxlaqi iyerarxizm prin-sipinin kənarında dayanırlar. Sosial qruplar arasında (aşağılar” və “yuxarılar”) məsafə hissi kəskinləşir. Əbdül dayı hey yol boyu Məhərrəmin ona verdiyi suallara cavabında da “həyatda hər kəs öz yerini hallalıqla ölçməlidir” əxlaqı ilə düşünür. Məhərrəmi Əbdül kişiyə yaxınlaşdıran - yazıçının cəhdi - qızı Nurcahana olan sevginin andırılması, bibisi ərinin şifahi razılığını olmasıdır. Nurcahan da telefonda buna işarə verir, əks halda ona varlı bir yerdən elçi gələcəyilə “hədələməkdir”. Amma hələlik onun - Məhərrəmin bu proqnozu alınmır, iş elə gətirir Qaraxan-lıdakı Bank müdiri Bədəlovun tapşırığı: xəstə, qorxulu mal-qaranın ətini camaata sırımaq, bu yolla pul qazanmaq - Əbdül dayını belə bir tapşırıq qəzəbləndirir və Məhərrəmə qarşı onda nifrət yaradır: “Deməli, Məhərrəm o xəstə heyvanları kəs-dirəcək. Bu ətlər də dükan - bazarlarda satılacaq, xəstəxanalarda, uşaq bağçala-rında bunlardan ləzzətli xörəklər bişiriləcək?” Məhərrəmə bu anti humanist hərə-kətlər çatmır, onu düşündürən ancaq Nurcahana qovuşmaqdır. Onda - gənc sahib-karda hələ feodal əhvalı mövcuddur, sərvət meyilləri öndədir. Əbdül dayı obra-zının xarakterində “insan sərvət üçün deyil, sərvət insan üçündür” mövcudlu-ğunu itirməmişdir. Yazıçı Yusif Həsənbəy Məhərrəm surətilə zərif şəkildə sahib-karlıq peşəsinin nüanslarına toxunur, onun mahiyyətinə işarələr edir: alqı-satqı, tica-rət münasibətləri sağlam düşünənin məhsulu olmalıdır, insanların həyat tərzində, məi-şətində olan silki - kooperativ hədlər fərdlərin maddi vəziyyətini, sərvətlərini ciddi qaydada tarazlaşdırar, bir şərtlə, insanın sağlam yaşamasına yönəldilsin. Müəllif ölkədəki hərcmərcliyi Məhərrəmin dar, məhdud, utilitar yanaşması ilə oxuculara çatdırır: “Ölkədə qapa-qap, qapa-qap başlanmışdır. Bəzi nazirlər balanslarında olan mülkləri, torpaq sahələrini, dövlət əmlakını dollara çevirib altlarını doldurdular. İc-ra hakimiyyəti başçılarının sərəncamı ilə kəhrizlər, bulaqlar, göllər tikanlı məftil-lərlə çəpərlənir, örüşlər, yaylaqlar imkanlılar arasında bölüşdürülürdü”. - Bu etiraf yazıçının da, bu sətirlərin müəllifinin də yaddaşından obrazın dilinə keçmişdir. Bə-li, müsətqilliyimizin ilk illərində “özəlləşdirmə”nin acı taleyini yaşamışıq. Heydər Əliyevin hakimiyyətə ikinci gəlişindən sonra ictimai mühitdə oyanış, qayda-qanun, nizam-intizam bərqərar olmağa başladı. Məhz Əbdül dayının gözləntisi də bu de-yildimi?! Əbdül dayı halallığı sevəndir və Məhərrəmi də bu əxlaqa çağırır, praktik (yol əhvalatları ilə bağlı) əməllərilə. Yazıçının təhkiyəsindən: “Əbdül dayı basıb-kəsən, atıb-tutan olmasa da fit anlayır, işarə qanan adamdır. Məhərrəmin onun bostanına atdığı daşları nəinki görür, o, hətta bu daşların əlvan rənglərinə heyran olurdu”. Əbdül dayı namuslu kişidir: “Qız yükü, duz yükü! İndi əksər valideynlər qızlarını dallarına şələyib meydan-meydan, bazar-bazar gəzdirirlər ki, çox yağlı olmasa da, heç olmasa ortabab bir müştəriyə ötürsünlər...”

Hələlik (müstəqilliyimizin ilk illərində) ictimai və mənəvi həyatımızın əx-laqi dayaqları titrəyir, tənzimlənmənin qayda-qanunları cızığından çıxmışdır, ona görə ki, bu tənzimlənmə insanın həm obyektiv, həm də subyektiv sahələrini əhatə etməkdə acizdir, lazım gəlir ki, nüfuzlu bir şəxsiyyət: böyük dövlət xadimi haki-miyyətin idarə olunmaq mexanizmini yoluna qoysun və bu, dahi artıq ölkəyə qə-dəm qoymuşdur, bölgələri gəzir, əhalinin durumu ilə, əhval - ruhiyyəsilə, iş şəraiti ilə tanış olur. Bu xəbər Qaraxanlı elatına da çatmışdır. Və oxucu Əbdül dayının halal boya-başa çatdırdığı, oxutdurduğu rəssam - xalçaçı Nurcahanla tanış olur. Hələlik intellektual səviyyəsi aşağı olan Məhərrəmin sevdiyi qızdır: O, Heydər Əliyevlə görüşürsə (inanır) əliboş istəmir qarşılansın: “Bir xalça toxuyub, ortasında da öndərimiz Heydər müəllimin şəkli. Deyir hansı marketdə divardan asdırıb sərgiləyəcək. Sonra da Öndərin özünə bağışlayacaq o xalça - əsəri”.

Ulu Öndərin gəlişi xəbəri əsərə təsadüfi düşməmişdir: mən povestə siyasi - sosial rəng vermək fikrindən uzağam, yazıçının belə bir ideyası da yoxdur. Lakin Yusif Həsənbəy əxlaqi sərvətlər müstəvisində qanunlara, prinsiplərə, davranış nor-malarına hörmətindən ictimai rəyi nəzərə almışdır. Xalq əhali Öndər Heydər Əliyevin siyasi - sosial - mənəvi kur sunu alqışlayır, bu isə obyektiv göstəricilərlə xarakterizə olunur. Bu, fərdlərin və sosial qrupların əxlaqi seçmədə rəyidir, ilkin əxlaqi mövqeyidir. Əbdül dayının timsalında bu istəyi eşidirik: “... Bizim dünya-mızda peyğəmbər misallı, yəni uzaqgörən, millət himayədarı, insanlara qayğı, hörmət göstərən bir tarixi şəxs var, o da Öndərimizdir. Deməli, Heydər müəllim keç-məlidi bu yoldan. Bu yolu da səması dərin, buludları ləçək-ləçək, üfüqləri geniş, ətrafları gül-çiçəkli olmalıdı”...



Povestdə obrazlar bizə tanış və doğmadılar, sevməyi və nifrət etməyi ba-carırlar, bu “ikilik”də məcburiyyət yoxdur, inandırma vardır. Bir də Məhərrəm ob-razının simasında “təmizlənmə” - Aristotelin “katarsis”i. Bu intəhasız yolda gənc rəssam - xalçaçı Nurcahanın da təsiri də yox deyil. Yeni nəsil dünyaya təzə , sağlam uşaqlar gətirəcəklər. Hər bir ictimai quruluş bəzi situasiyalarla xarakterizə olunur, əgər onun idarəetmə sükanı arxasında xalqın nüfuzunu qazanmış lideri da-yanmışsa, belə olanda insanlar əxlaqi seçim edir, azad, sərbəst qərarlar qəbul edir. İctimai rəy bu cür situasiyalarda ümuməhəmiyyətli qiymət verir. Ayrıca fərd üçün də bu qiymət, bu nümunə də əxlaqın mövcud etalonlarını daha da möhkəmlən-dirir, bu stabil, dəyişməz kurs - yol siyasi, ictimai xadimin qəhrəmanlıq tərcü-meyi - halının tərkib hissəsinə çevrilir. Yazıçı Yusif Həsənbəy “Əbdül dayı” po-vestində görkəmli şəxsiyyətin həyat fəaliyyətinin canlı timsalı kimi əxlaqi ideala malik olduğunu göstərir. Eyni zamanda gənc nəslin həyat fəaliyyətinin mühüm sərvət meyillərini, mənəvi dəyərlərini formalaşdırır.

Mən şair və yazıçı Yusif Həsənbəyin yaradıcılığından aldığım təəssüratı - poeziyanı və nəsrini bir-birilərindən ayırmaq istəmirəm. Onlar üzvi vəhdət yaradır, vaxtilə deyilmiş bu obrazlı fikri xatırladım. “Bədii əsərin ayrı-ayrı elementləri bir-biri ilə dəstəkdəki güllər kimi yox, çiçəklənmiş bitkinin hissələri kimi birləşirlər”.

# Nə qədər ki, sevgi var...

(Unudulmaz şair Nüsrət Kəsəmənlinin xatirəsinə)

**Öz dövrünün gənclərinin maraqla oxuduğu bir şair vardı: Nüsrət Kəsəmənli. Şeirləri əl-əl gəzirdi, sevgi məktublarını əvəz edirdi. Çünki bunlar adi şeirlər deyildi, məhəbbətdən, sevgidən yoğrulmuşdu.**

Nüsrət Əyyubov - əsl ad və soyadı belə idi. 1946-cı ildə Qazax mahalında doğulmuşdu. Bu səfalı yerlərin saf havası, çayları, bulaqlarının şırıltısı onun ruhuna köçmüşdü. O, sonradan dillər əzbəri olan şeirlərini "Nüsrət Kəsəmənli" imzası ilə yazırdı. Ucaboy, enlikürək, xoş sima, incə təb - bütün bunlar onu gənclərə, istəkli oxucularına sevdirən keyfiyyətləri idi. Nüsrət müəllimin həyat yolu hamar və rahat olmamışdı. Nənəsinin himayəsində böyümüşdü. Çox çətinliklərlə üzləşmişdi. Sonralar çox məşhur "Biri vardı, biri yox" şeirində etiraf etdiyi kimi, həmyaşıdları hər şeylə təmin olunduqları halda, onda "biri vardı, biri yox"...

Nüsrət Kəsəmənlinin yaradıcılığı ilə ilk tanışlığım onun "Özümə bənzədiyim günlər" şeirlər kitabından başlamışdı. Nüsrət Kəsəmənlinin bütün şeirləri sevgidən, məhəbbətdən dil açırdı. O, məhəbbət, sevgi şairi idi. Bu mövzu onun şeirlərindən qırmızı xəttlə keçirdi. İncə rübablı Nüsrətin sevgiyə, məhəbbətə öz baxışı vardı. O, ilk sevgini yuvasından düşmüş quşcuğaza bənzədirdi. Nə gözəl bənzətmə?! Gənclərin dilinin əzbərinə çevirilmiş "Sən demə, təzədən sevmək olarmış", "Getmək istəyirsən bəhanəsiz get", "Nə biləydik", "Mən səni unuda bilmirəm axı" və bu kimi digər şeirlərində də incə sevgi motivləri əks olunur. Nüsrət Kəsəmənli qələmə aldığı bu şeirləri yaşayaraq, onu duya-duya yazırdı. Hərdən fikirləşirəm: Görəsən, Nüsrət Kəsəmənli başqa bir sahədə olsaydı, məsələn, müəllim, mühəndis, həkim



kimi özünü təsdiqləyə bilərdimi?! Bu qədər sevilə, populyar ola bilərdimi?! Yox, Nüsrət Kəsəmənli yalnız poeziya üçün doğulmuşdu. Necə deyərlər, balıq susuz yaşaya bilmədiyi kimi, o da poeziyasız yaşaya bilməzdi. Poeziya onun həyatı idi. Heyif, min heyif ki, bu ömür yolu çox qısa oldu. Dillər əzbəri olacaq şeirləri də onun vaxtsız ölümü ilə əbədiyyətə qovuşdu.

Nüsrət Kəsəmənli ilk təhsilini Dövlət İncəsənət İnstitunda almışdı. Sonra jurnalist ixtisasına yiyələnmək üçün Bakı Dövlət Universitetində təhsilini davam etdirirdi. Həm də hərbi xidmətini başa vurub qayıtmışdı. "Bakı" və "Baku" axşam qəzetlərində işləyirdi. Həmin illərdə Nüsrət Kəsəmənli gənclər tərəfindən bəlkə də, ən çox oxunan, ən çox sevilən şairlərdən idi. "Dünyaya pəncərə" adlı televiziya verilişinin həm ssenari müəllifi, həm də aparıcısı idi. Onun şeirlərinə bəstələnən mahnıların sayı gündən-günə artırdı. Bu mahnılar o illərdə, elə indi də çox populyardır.

Nüsrət müəllimi yaxşı tanıyanlardan çox eşitmişəm: O, hər şeyə vaxt tapa bilirdi. Gecə yarısına qədər davam edən dost məclisləri, bəstəkarlarla, müğənnilərlə mahnı yaradıcılığı, ailə qayğıları, görüşlər, səfərlər... Hətta imkan tapıb "Doğma sahillər" filmində çəkilməyi də bacarmışdı. Ancaq onun ürəyi poeziya ilə döyünürdü. Nüsrət Kəsəmənli yazmaya bilmirdi. Ürəklər oxşayan sevgi misraları ağ vərəqlərə axdıqca, rahatlıq tapırdı. Sanki sakitləşirdi. Çox keçməmiş bu atəş yenidən alovlanırdı. Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Tərəqqi" medallı jurnalist - publisist Mirzə Müşfiq:

- Nüsrət Kəsəmənli 70-ci illərdə hərbi xidmətdən qayıtdıqdan sonra təhsilini jurnalistika fakültəsində, bizim qrupda davam et-



dirməyə başladı. Onda Nüsrət həm "Bakı" və " Baku" axşam qəzetlərində əməkdaşlıq edirdi. Əsasən mədəniyyət xəbərlərindən yazırdı. Həmin illərdə Nüsrətin əsgər şeirləri də çox məşhur idi. Qrupumuzda artıq tanınan başqa şairlər də vardı: Taceddin Şahdağlı, Zamin Mahmudov, Mikayıl Şəfeqli... Ancaq fasilələrdə hamı Nüsrətin başına toplaşırdı. Onun söhbətləri





çox maraqlı olurdu.

Bir dəfə fasilə vaxtı Nüsrətlə yanaşı dayanmışdıq. Əslən Masallıdan olan qrup yoldaşımız Həsənağa yaxınlaşıb: "Nüsrət müəllim, bir şeir yazmışam, bəlkə qulaq asasınız"... - dedi. Nüsrət, "yaxşı şeirə qulaq asmağa həmişə vaxt tapmaq olar", - söylədi. Həsənağa şeirini oxumağa başladı. Şeiri dəqiq xatırlamıram. Çünki üstündən düz yarım əsr keçir. Ancaq o yadımdadır ki, ilk misralardan birinin sonunda "cığır" sözü vardı. Nüsrət cəld onu saxladı: - Bir dəqiqə bağışla, qəhrəmanın adı yəqin ki, Bağırdır?! Həsənağa təsdiq etdi. Nüsrət, "bilirsən, "cığır" və " Bağır" sözləri qafiyədir. Ona görə bildim ki, qəhrəmanın adı "Bağır" olacaq", - dedi.

Onu da deyim ki, həmin illərdə bizə dərs deyən Bəxtiyar Vahabzadə, Famil Mehdi, Nurəddin Babayev Nüsrətə çox böyük hörmətlə yanaşırdılar... Bilmirəm,



kimin sözüdür, amma çox düz deyir: "Biri var şair, biri də var şeir yazan. Nüsrət əsl şeir yazan idi"...

Bəli, Nüsrət Kəsəmənli üçün sevgi, məhəbbət hissləri onun şeirlərinin ən uca zirvəsi idi. Bu şeirlər çox həzin, ürəyə yatan, ana laylası qədər şirindir.

*- Sənsiz elə bilmə öləcəyəm mən,*
*Qara bir kədərə dönəcəyəm mən,*
*Gecələr yuxuna gələcəyəm mən,*
*Sən məni unuda bilməyəcəksən.*

*Ömründə narahat izim qalacaq,*
*Alovum sönsə də, közüm qalacaq,*
*Arxanca həmişə gözüm qalacaq,*
*Sən məni unuda bilməyəcəksən.*

Və yaxud:

*- Bu sevgidən sən qorxursan eybi yox,*
*Mən sevərəm ikimizin yerinə.*
*Bu eşq üçün bir gün dara çəksələr,*
*Mən gedərəm ikimizin yerinə.*

*Taleyimdə son açılan gülümsən,*
*Süzüb qara gözlərini gülümsə,*
*Bu sevginin sonu əgər ölümsə,*
*Mən ölərəm ikimizin yerinə.*

Görəsən, ürəkləri ehtizaza gətirən bu incə hissləri bundan gözəl necə ifadə etmək olar?!

Nüsrət Kəsəmənli şeir yazmırdı, ürəyinin odunu, atəşini vərəqlərə köçürürdü.

**Haşiyə:** Mədəniyyət və Turizm Nazirliyinin xətti ilə nəşr olunan jurnalların birində şairin sədaqətli ömür-gün yoldaşı Rəhilə xanımın Nüsrət Kəsəmənli ilə bağlı xatirələrini oxumuşam. Bəlkə də bu yaşımadək oxuduğum xatirələr içində ən təsirlisidir. Düz deyirlər, şair xanımı olmaq çox çətindir. Üstəlik, Nüsrət Kəsəmənli kimi hüdudsuz dərəcədə sevilən, daim üzdə olan bir şairin xanımı olmaq, onun "şıltaqlıqları"na dözmək onqat çətin idi. Rəhilə xanım bütün bunları biruzə vermədən dözürmüş, yatmayıb onu gözləyirmiş.

Bildiyim bir həqiqət var, insan kimi böyük adamların böyük ürəyi olur. Rəhilə xanım da Nüsrətin iki övladının anası, vəfalı ömür-gün yoldaşı, son dərəcə həssas bir xanım idi. Qadın qısqanclığı həmişə olub: dünən də, bu gün də sabah da olacaq. Bunu hədsiz



sevgi ilə əlaqələndirənlər də vardır. Amma, Nüsrət müəllimə dəryalar qədər olan sevgisinə baxmayaraq, Rəhilə xanım Nüsrət Kəsəmənlini vaxtı ilə onu sevən, elə Nüsrət Kəsəmənlinin də onu bir zamanlar sevdiyi, lakin taleyin hökmü ilə "ulduzları barışmayan" xanımla görüşməsini təkid edirmiş. Hətta həmin xanım xəstəxanada ölümlə çarpışdığı son günlərdə Nüsrət müəllimlə birlikdə xəstəxanaya - ona baş çəkməyə məcbur edib. Belə böyüklük, mində, yüz mində yox, milyonlarla qadından birində olur...

Nüsrət Kəsəmənli bir şeirində deyir: "Daha nağıllara inanmıram mən"... Biz də sənin yoxluğuna, bizi əbədi tərk etməyinə inana bilmirik. Çünki hər saat, hər an oxucuların səni xatırlayır.

Mən belə düşünürəm, nə qədər ki, sevgi var, məhəbbət var, Nüsrət Kəsəmənli də yaşayacaq, sağ olacaq. Hər efirdə, məclislərdə sözlərinə bəstələnmiş nəğmələri səslənəndə, şeirləri qiraət olunanda ruhu efirlərdə, məclislərdə dolaşacaq.

Öz ömrü qısa olsa da, bütün türk dünyasının ona olan məhəbbəti, sevgisi qısa olmadı, əsrlər boyunca da, olmayacaq.

Çünki əsl sevgi əbədidir...

## HƏSRƏT

***"Biri vardı, biri yox"***
***İkisi də var idi:***
***o Davud, o da Nüsrət.***
***Ulduz kimi söndülər,***
***xatirəyə döndülər.***
***Biri ataya həsrət,***
***biri anaya həsrət.***
***Vətəndə vətən idi,***
***millət yanında millət, -***
***O Davud, o da Nüsrət.***
***Onun nəvəsi oldu,***
***bunun oğlu tutuldu.***
***Biri nəvəyə həsrət,***
***biri oğula həsrət.***
***Davud yağışa düşdü,***
***fikirliydi zavallım.***
***Əyləci saxlayınca,***
***vaxtı saxladı, zalım.***
***Cavanşiri* oyatdı,***
***özü əbədi yatdı.***
***Gözləyirdim Nüsrəti,***
***gözlərimdə xiffəti.***
***Yola saldım İrana,***
***tabut döndü bu yana.***
***Nüsrət Davuda həsrət,***
***Davud Nüsrətə həsrət. Yer üstü,***
***yer altına- iki həsrətə həsrət.***

**Nəriman HƏSƏNZADƏ,**
**Xalq şairi**

## QƏLBİM YAMAN YUXALIB...

**Yerin cənnət olsun qardaşım Nüsrət !**

Sənin bu yoxluğun gözəllərə dərd,
Sevgi şeirləri yoxa çıxıbdı.
Şairlər içində sən hamıdan mərd,
Ürək dostlarını kədər yıxıbdı!

Məhəbbətdən şeir yazan çoxalıb,
Çoxlarının Tanrısı yox, piri yox!
Şair Nüsrət qəlbim yaman yuxalıb,
Yadımdadı ,,Biri vardı, biri yox!,,

Yadımdadı əli qanlı düşmənin,
Azman kimi bir yeridik üstünə!
Neçə - neçə xam xəyala düşənin,
Sonra bildik, fikri nədi, qəsdi nə!

O siyasət oynunda,
Qaldıq əli qoynunda!
El töhməti boynunda;
Uduzan biz!
Udan kim?!
Azadlığı biz aldıq,
Ləzzətini dadan kim?!

**Dəmir GƏDƏBƏYLİ,**
**şair-professor**

## Ölməyib, ölümü öldürən şair!

***(Nüsrət Kəsəmənliyə ağı)***

*Ürəyim ağradı bu səhər sənə,*
*Yanıb qovruluram vaxtsız ölmünə,*
*Niyə fələk qıydı sənin kiminə?*
*Ölməyib, ölümü öldürən şair!*

*Süfrən açıq oldu dosta, qonağa,*
*Sınmadın, tutdular səni qınağa,*
*Sən ki, bənzəyirdin sönməz çırağa,*
*Ölməyib, ölümü öldürən şair!*

*Dağ qüruru vardı o vüqarında,*
*Saflıq, paklıq vardı əhd - ilqarında,*
*Söz idi şöhrətin, həm də varın da,*
*Ölməyib, ölümü öldürən şair!*

*Köksündə nə boyda dağ aparmısan,*
*Neçə gözəl illər, çağ aparmısan,*
*Meyvəsi tağında bağ aparmısan,*
*Ölməyib, ölümü öldürən şair!*

*Qalxmışdı göylərə Qarabağ ahın,*
*Qürbətdə qaraldı gələn sabahın,*
*Səni əlimizdən aldı Allahım,*
*Ölməyib, ölümü öldürən şair!*

*Oğluna qoymuşdun çay adın Araz,*
*Sənin yadigarın Reşatla, Araz,*
*Onlar idi sənə həm arzu, muraz,*
*Ölməyib, ölümü öldürən şair!*

**Hazırladı: Fuad BİLƏSUVARLI**
**AYB və AJB üzvü, Prezident mükafatçısı**